# Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında

**Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2019-cu il üzrə fəaliyyəti haqqında**

## MƏLUMAT



Bakı – 2020

# “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında”

## Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2019-cu il üzrə fəaliyyəti haqqında

# M Ə L U M A T

Bakı – 2020

# MÜNDƏRİCAT

**GİRİŞ** . . . . . . . . . . 3

**1. Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri üzrə həyata keçirilən tədbirlər. (Maddə 5)** . . . . . . . . 5

1.1. Normativ hüquqi bazanın təkmilləşdirilməsi . . . . . . . . 5
1.2. Gender siyasəti üzrə fəaliyyətləri nəzərdə tutan sənədlər . . . . . . . . 9
1.3. Gender bərabərliyi mədəniyyətinin təbliği . . . . . . . . 12

**2. Gender bərabərliyinin təmin edilməsində dövlətin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi üzrə həyata keçirilən tədbirlər. (Maddə 6)** . . . . . . . . 15

2.1. Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması 15
2.2. Kişilər ilə qadınlara bərabər imkanların yaradılması . . . . . . . . 23
2.3. Dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsi . . . . . . . . 25

**3. Gender bərabərliyinin sahələr üzrə təmin edilməsi. (Maddə 7-16)** . . . . . . . . 30

3.1. Əmək hüquqlarının həyata keçirilməsində gender bərabərliyinin təmini . . . . . . 30
3.2. Təhsil hüquqlarının həyata keçirilməsində bərabər imkanların təmin edilməsi . 37
3.3. Siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və həmkarlar ittifaqlarının fəaliyyətində gender bərabərliyinin təmin edilməsi . . . . . . . . 45

**4. Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində həyata keçirilməsi zəruri olan tədbirlər** . . . . . . . . 48

# Giriş

Bu Məlumat “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının 10 oktyabr 2006-cı il tarixli Qanununun 20-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilməsi üçün hazırlanmışdır. Həmin maddəyə görə gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanı öz fəaliyyəti haqqında Azərbaycan Respublikasının Milli Məclisinə illik məlumat təqdim edir.

Qeyd edilən Qanunun məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsindən ibarətdir. Qanunun 2.0.2-ci maddəsinə görə **gender bərabərliyi** – qadın və kişilərin hüquq bərabərliyi və bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar və onların cəmiyyətdə bərabər sosial vəziyyətidir.

Məlumatda gender bərabərliyinin təmin edilməsi sahəsində Azərbaycan Respublikasında 2019-cu ilə qədər olan vəziyyətin ümumi təsviri və 2019-cu ildə həyata keçirilən tədbirlər, qeyd edilən sahədə əldə edilmiş naliyyətlər və gələcəkdə həllini gözləyən məsələlər əks olunmuşdur. Bu dövrdə həyata keçirilən tədbirlərin əksəriyyəti əsasən qadınların inkişafı və irəli çəkilməsinə fokuslansa da, mənfi gender stereotiplərinin aradan qaldırılmasının vacibliyi əks cinsin nümayəndələri ilə maarifləndirmə işlərinin aparılmasını zəruri etmişdir. Əsasən qadınların liderlik qabiliyyətlərinin inkişafı, qadınların iqtisadi cəhətdən gücləndirilməsi, müasir və yüksək maaşlı peşə sahələrində kişilərlə bərabər qadınların sayının artırılması və bu sahələrdə təhsilin təşviqi, qız uşaqlarının dəstəklənməsi kimi məsələlər önə çəkilmişdir. Müxtəlif sahələrdə cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin səbəblərinin araşdırılması üçün tədqiqatlar aparılmış və onların aradan qaldırılması yolları öyrənilmişdir.

Qanunun qəbul edildiyi ilk illərdən fərqli olaraq son illərdə gender amilinə dövlət idarəçiliyində diqqət artırılmış, sosial-iqtisadi cəhətdən onun əhəmiyyətliliyi xüsusilə vurğulanmışdır. Ölkədə idarəetmənin müxtəlif səviyyələrində qadınların kişilərlə bərabər təmsilçiliyi tam təmin olunmasa da, bu sahədə müəyyən inkişaf dinamikası mövcuddur. Sosioloji sorğuların nəticələri əhali arasında gender mədəniyyətinin təbliği sahəsində aparılan geniş maarifləndirmə və məlumatlandırma tədbirlərinin müsbət nəticələr verdiyini sübuta yetirir. Ölkədə məşğulluğun və xüsusilə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, habelə gender bərabərliyinin təşviqi üzrə xüsusi layihələr qadınların iqtisadi cəhətdən gücləndirilməsi prosesinin sürətlənməsinə imkan yaratmışdır.

Ümumən dünyada gender bərabərliyinin tam təmin edilməsi prosesini ləngidən bir sıra amillər eyni ilə Azərbaycanda da mövcuddur. Erkən yaşda evlilik, məişət zorakılığı, mənfi gender stereotipləri, selektiv abortlar hələ də problem olaraq qalmaqdadır. Növbəti illərdə bu problemlərin qarşısının alınması üzrə tədbirlərin daha da gücləndirilməsi nəzərdə tutulmuşdur.

2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Komitəsində (CEDAW) ölkəmizin beşinci dövrü məruzəsi dinlənilmiş və ölkəmizlə bağlı 17 məsələyə dair rəy və tövsiyələr qəbul edilmişdir. CEDAW Komitəsi

tərəfindən Azərbaycanda məişət zorakılığının, erkən nikahların, insan alverinin qarşısının alınması sahəsində aparılan qanunvericilik islahatları, habelə insan hüquqlarının təmin edilməsi ilə bağlı qəbul edilmiş dövlət proqramları müsbət qiymətləndirilmişdir. Eyni zamanda ictimai həyatın bütün sahələrində qadınların kişilərlə bərabər öz hüquqlarından səmərəli şəkildə istifadə etməsi üçün real tədbirlərin görülməsi, həssas qrupdan olan qadınların dəstəklənməsi, gender bərabərliyinin təmin edilməsi üzrə mexanizmlərin gücləndirilməsi və bu məqsədlər üçün müvafiq siyasi sənədlərin qəbul edilməsi tövsiyə edilmişdir.

Dövlət Komitəsi öz fəaliyyətində BMT-nin CEDAW Komitəsinin ölkəmizin dövrü hesabatları ilə bağlı rəy və tövsiyələrini, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini (DİM) və digər mötəbər beynəlxalq təşkilatların çağırışlarını nəzərə almışdır.

Dövlət Komitəsi Qanunun icrasının təmin edilməsi və eyni zamanda bu sahədə ölkəmizin üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsi ilə bağlı aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmiş, fəaliyyətləri əlaqələndirmiş və mövcud boşluqların aradan qaldırılması üçün öz tövsiyələrini təqdim etmişdir.

**Hazırki Məlumat Qanunun müvafiq maddələrindən irəli gələrək dörd istiqaməti əhatə edir:**

- Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri üzrə həyata keçirilən tədbirlər (Maddə 6)
- Gender bərabərliyinin təmin edilməsində dövlətin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi üzrə həyata keçirilən tədbirlər (Maddə 8)
- Gender bərabərliyinin sahələr üzrə təmin edilməsi (7-16)
- Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində həyata keçirilməsi zəruri olan tədbirlər.

Məlumatda gender bərabərliyinin təmin edilməsi sahəsində perspektivlər, hüquqi müstəvidə əldə olunan nailiyyətlər, beynəlxalq əməkdaşlıq, mövcud problemlər və maneələr, gələcəkdə icrası planlaşdırılan məsələlər və hədəflər öz əksini tapmışdır.

Qanunda "cinsi mənsubiyyətə görə ayrı-seçkilik" anlayışının əhatə dairəsi geniş verildiyindən beynəlxalq sənədlərdən irəli gələrək gender əsaslı zorakılıq halları da həmin anlayışın təsir dairəsinə düşür. Qanunda gender əsaslı zorakılıqla bağlı xüsusi maddələr olmasa da Dövlət Komitəsi ölkəmizdə aktual olan gender əsaslı zorakılıq hallarının: məişət zorakılığı, qız uşaqlarının erkən evliliyi, selektiv abortların qarşısının alınması istiqamətində həyata keçirilmiş tədbirlərində Məlumata daxil edilməsini məqsədəuyğun hesab etmişdir.

Məlumatda əks olunan statistik göstəricilər Dövlət Statistika Komitəsinin və digər dövlət orqanlarının (qurumlarının) məlumatlarına, habelə Dövlət Komitəsinin qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlarla birgə həyata keçirdiyi araşdırmaların nəticələrinə əsaslanmışdır.

# 1. Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri üzrə həyata keçirilən tədbirlər (Maddə 5)

***1.1. Normativ hüquqi bazanın təkmilləşdirilməsi***

***1.2. Gender siyasəti üzrə fəaliyyətləri nəzərdə tutan sənədlər***

***1.3. Gender bərabərliyi mədəniyyətinin təbliği***

## ◆◆◆ 1.1. Normativ hüquqi bazanın təkmilləşdirilməsi

1995-ci il sentyabr ayında BMT çərçivəsində keçirilmiş IV Ümumdünya Qadınlar Konfransı qadın hüquq və azadlıqlarının təmin edilməsi, gender bərabərliyi sahəsində dünya ölkələri qarşısında həlli vacib sayılan ciddi strateji vəzifələr qoydu. Azərbaycanda bu çağırışlardan irəli gələrək ilk növbədə hüquqi bazanın formalaşdırılması və bunun əsasında mövcud vəziyyətin dəyişdirilməsi istiqamətində əməli tədbirlər həyata keçirildi. Azərbaycan Respublikasının yeni Konstitusiyasının qəbulu, 1995-ci ildə BMT-nin “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiyasının ratifikasiyası, 2000-ci ildə Qadın problemləri üzrə Milli Fəaliyyət Planının, 2006-cı ildə “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” və 2010-cu ildə “Məişət zorakılığının qarşısının alınması haqqında” qanunların və bir sıra normativ xarakterli aktların qəbulu ölkəmizdə qadın hüquqları və gender siyasətinin hüquqi əsaslarının formalaşdırılmasına zəmin yaratdı.

Mövcud normativ hüquqi bazanın müasir dövrün tələblərinə uyğunlaşdırılması məqsədi ilə beynəlxalq təşkilatların dəstəyi ilə ayrı-ayrı sahələr üzrə qanunvericiliyin gender ekspertizası aparılmış və boşluqlar müəyyən edilmişdir. Təcrübə göstərir ki, müxtəlif hüquq sahələrində cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin yol verilməzliyi və hüquq bərabərliyinin təmin edilməsinin əsas prinsipləri təsbit edilsə də, lakin onlara əməl olunması ilə bağlı monitorinq və qiymətləndirilmənin aparılmasında çətinliklər mövcuddur. Qanunvericilkdə hər iki cins üçün de-yure bərabərliyin müəyyən edilməsi de-fakto bərabərliyin təmin edilməsi üçün effektiv mexanizmlərin olmasını zəruri edir.




Gender bərabərliyinin təmin edilməsi sahəsində icra mexanizmlərinin daha da dəqiqləşdirilməsi üçün Dövlət Komitəsi tərəfindən “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklərin edilməsi haqqında” Qanun layihəsi hazırlanaraq hökumətə təqdim edilmişdir. Belə ki, “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin

29 noyabr 2006-cı il tarixli, 484 nömrəli Fərmanının 2-ci bəndinə əsasən gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən dövlət orqanı olaraq Komitə müəyyən edilsə də, Qanunda bu nəzarətin mexanizmi aydın göstərilməmişdir. Bu səbəbdən layihədə gender bərabərliyinin həyata keçirilməsi ilə bağlı nəzarət tədbirləri, eyni zamanda onların həyata keçirilməsi ilə bağlı müvafiq qaydanın müəyyən edilməsi təklif olunur.

Gender bərabərliyi üzrə siyasətin digər sahələrlə kəsişən olduğunu nəzərə alaraq, onun səmərəli şəkildə həyata keçirilməsi məqsədi ilə bir çox ölkələrin qanunvericiliyində qurumlararası əlaqələndirmə mexanizmləri nəzərdə tutulmuşdur.

***Azərbaycanda qadın hüquqları və gender bərabərliyi sahəsində ən mühüm hüquqi sənədlər***

- *“Birləşmiş Millətlər Təşkilatının Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyasına qoşulmaq barəsində” Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 30 iyun tarixli Qərarı*
- *“Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 14 yanvar tarixli, 727 nömrəli Sərəncamı*
- *“Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli, 289 nömrəli Fərmanı*
- *“Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli, 289 nömrəli Fərmanının icrası haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 26 sentyabr, 176 nömrəli Qərarı*
- *“Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il tarixli Qərarı*
- *“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının 2006-cı il tarixli, 150-IIIQ nömrəli Qanunu*
- *“Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli, 1058-IIIQ nömrəli Qanunu*

## İnstitusional mexanizmlər

***Azərbaycanda dövlət gender siyasətinin daha mütəşəkkil həyata keçirilməsini təmin etmək üçün aşağıdakı institusional mexanizmlər formalaşdırılmışdır:***

- ***Azərbaycan Respublikasının Milli Məclisində Ailə, Qadın və Uşaq Məsələləri üzrə Komitə*** – ailə, qadın və uşaq məsələləri üzrə dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsinə dair qanun və qərar layihələri üzrə aparıcı komitədir.

İlk dəfə 2015-ci ildə 5-ci çağırış AR Milli Məclisinin Komitəsi olaraq yaradılmışdır.

- ***Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi***

Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Komitə fəaliyyət göstərdiyi dövr ərzində bu sahədə mövcud

olan problemlərin həlli istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir. Lakin ailə və uşaq problemlərinin qadın problemləri ilə əlaqəli surətdə kompleks həlli zərurəti vahid dövlət idarəetmə orqanının təşkilini şərtləndirmişdir. Bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2006-cı il tarixli Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Əsasnaməyə uyğun olaraq ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Dövlət Komitəsi öz fəaliyyətini mərkəzi və yerli dövlət orqanları (qurumları), bələdiyyələr, qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində həyata keçirir. Komitənin yerli bölmələri olmadığı üçün onun fəaliyyət dairəsinə aid məsələlərin icrasını yerlərdə yerli icra hakimiyyəti orqanları həyata keçirir.

*Dövlətin ailə, qadın və uşaq siyasətinin formalaşdırılması və yerlərdə həyata keçirilməsi üzrə institusional idarəetmədə birbaşa tabeçilik, hesabatlılıq və nəzarətin olmaması təcrübədə bir sıra çətinliklərin yaranmasına gətirib çıxarır.*

Dövlət Komitəsinin tabeliyində (strukturuna daxil deyil) 11 rayonda (Ağdam, Göygöl, İsmayıllı, Zaqatala, Qəbələ, Zərdab, Saatlı, Sabirabad, Hacıqabul, Goranboy, Bakı şəhəri Xəzər rayonu) Uşaq və Ailələrə Dəstək Mərkəzləri fəaliyyət göstərir. Mərkəzlərin ümumi istiqaməti icmada risk qrupundan olan qadınlar və ailələrlə sosial iş, uşaqların internat müəssisələrinə düşməsinin, təhsildən yayınmasının, erkən nikah, məişət zorakılığı, insan alveri hallarının qarşısının alınması, gender bərabərliyi mədəniyyətinin təbliği, yeniyetmələrin təhlükəli yaş dövründə asudə vaxtının təşkili və digər sosial problemlərlə bağlı qabaqlayıcı tədbirlərin, monitorinqlərin, araşdırmaların maarifləndirmə tədbirlərinin həyata keçirilməsindən ibarətdir.

*Mərkəzlərin fəaliyyətindən əldə olunan müsbət nəticələr göstərir ki, gələcəkdə ölkə ərazisində onların sayının artırılması məqsədəuyğun olardı.*

Dövlət Komitəsi BMT-nin CEDAW Komitəsinə Azərbaycan hökumətinin “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə” Konvensiyasının həyata keçirilməsinə dair dövrü məruzələri təqdim edir. Hazırda ölkəmizin altıncı dövrü hesabatı təqdim edilmişdir

Dövlət Komitəsi 2019-cu ildən başlayaraq, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanı olaraq “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının 10 oktyabr 2006-cı il tarixli Qanununun 20-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Milli Məclisinə illik məlumat təqdim edir.

### ➢ *Gender məsələləri üzrə məsul şəxslər*

“Azərbaycan Respublikasında Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli, 289 nömrəli Fərmanın icrasını təmin etmək məqsədi ilə təsdiq edilmiş Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 26 sentyabr tarixli, 176 nömrəli Qərarına əsasən nazirlik, komitə, şirkət, konsern və digər dövlət müəssisə və təşkilatlarında daxili imkanlar çərçivəsində gender siyasəti tələblərinə uyğun olaraq gender məsələləri üzrə məsul şəxslər təyin edilmişdir. Bu Qərar bütün dövlət orqanları (qurumları) və digər təşkilatların gender bərabərliyinin təmin edilməsi ilə bağlı fəaliyyətinin təkmilləşdirilməsinə, həyata keçirdikləri siyasətlərə gender amilinin daxil edilməsinə imkan verir.

*Lakin qanunvericilikdə gender məsələləri üzrə məsul şəxslərin funksiyaları müəyyən edilmədiyindən bu onların fəaliyyətində çətinliklər yaradır. Müsbət beynəlxalq təcrübədən yararlanmaqla dövlət orqanlarının (qurumlarının) strukturlarında gender siyasətinin həyata keçirilməsi üzrə*

*təkmilləşdirmə işlərinin aparılmasına, bununla bağlı Qanuna dəyişikliklərin edilməsinə ehtiyac vardır.*

## ➢ Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları

“2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 3.5.2.1-ci bəndinin icrası məqsədi ilə yerli icra hakimiyyəti orqanlarında icra başçılarının sərəncamı ilə Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları yaradılmışdır. Monitorinq qruplarına yerli icra hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini sədrlik edir. Monitorinq qruplarının tərkibi yerli təhsil şöbəsinin, səhiyyə şöbəsinin (mərkəzi xəstəxana), polis şöbəsinin, prokurorluğun, sosial müdafiə mərkəzinin və rayon qeydiyyat şöbəsinin rəhbər vəzifəli əməkdaşlarından ibarətdir.

Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə etibarlı monitorinq mexanizmi olaraq yerli monitorinq qrupları yerlərdə vəziyyətin qiymətləndirilməsi, həyata keçirilən tədbirlərin effektivliyinin yoxlanılması, riskli ailələrin müəyyən edilməsi və lazımi dəstəyin göstərilməsi, zorakılığın səbəblərinin araşdırılması və təhlil edilməsi, xüsusilə də baş vermiş ağır zorakılıq hallarının müzakirəsi, zorakılıq qurbanlarının müdafiəsi və müvafiq yardımlarla təmin edilməsi üzrə fəaliyyətlərin əlaqələndirilməsi kimi funksiyaları həyata keçirir. BMT, Avropa Şurası, Avropa İttifaqı və sair beynəlxalq təşkilatlar Azərbaycanda yerli monitorinq qruplarının yaradılmasını müsbət qiymətləndirmiş və onların potensialının artırılması üçün öz dəstəyini göstərmişdir.

*Dövlət Komitəsi tərəfindən Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qruplarının işinin təkmilləşdirilməsi məqsədilə gələcəkdə qanunvericiliyə monitorinq qruplarının fəaliyyətini tənzimləyən hüquq normalarının daxil edilməsi bağlı təkliflərin hazırlanması nəzərdə tutulmuşdur.*

## ➢ Qadın Resurs Mərkəzləri

Dövlət Komitəsinin BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirdiyi “Kənd və rayon yerlərində yaşayan qadınların sosial-iqtisadi həyatda iştirakının təşviqatı” layihəsi çərçivəsində rayon və kənd yerlərində yaşayan qadınların seçdiyi fəaliyyət (biznes) sahəsində bilik və bacarıqlarının təkmilləşdirilməsi, ictimai həyatın bütün sahələrində və sosial şəbəkələrdə fəallığının artırılması məqsədilə Qadın Resurs Mərkəzləri yaradılmışdır. Hazırda 9 rayonda (Sabirabad, Biləsuvar, Neftçala, Masallı,Salyan, Qusar, Zaqatala, Xaçmaz və Bakı şəhərinin Xəzər rayonu) Qadın Resurs Mərkəzi mövcuddur. Mərkəzlər məsləhətləşmə, mentorluq, şəbəkələşmə, gücləndirmə, təhlükəsiz məkan, səmərəli ünsiyyət və təbliğat daxil olmaqla, qadınlara geniş xidmət göstərən texniki qurum kimi fəaliyyət göstərir.

Qadın Resurs Mərkəzlərinin kənar maliyyələşmədən asılılığını azaltmaq və fəaliyyətinin davamlılığını təmin etmək məqsədilə onların dövlət qeydiyyatına alınaraq qeyri-hökumət təşkilatı kimi fəaliyyət göstərməsi təmin edilmişdir.

Yerli xüsusiyyətləri nəzərə alaraq və bölgələrdə qadınların və qızların resurs mərkəzlərinə daha çox sayda cəlb edilməsi məqsədi ilə bu mərkəzlər rayonlarda Heydər Əliyev adına Mərkəzlərin binasında yaradılmışdır

*Qadın Resurs Mərkəzləri tərəfindən yerlərdə həyata keçirilən səmərəli fəaliyyətlər gələcəkdə bütün rayonlarda bu cür mərkəzlərin yaradılmasını zəruri edir.*

## ◆◆◆ 1.2. Gender siyasəti üzrə fəaliyyətləri nəzərdə tutan sənədlər

“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun 5.0.3-cü maddəsində gender bərabərliyinin təmin edilməsi üçün dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi bu sahədə dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Son on ildə insan hüquqlarının təmini, regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, məşğulluğun inkişafı sahəsində həyata keçirilmiş dövlət proqramlarında, milli fəaliyyət planlarında gender amilinin nəzərə alınması istiqamətində cəhdlər edilmişdir.

Xüsusilə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı”nda gender bərabərliyinin dəstəklənməsi strateji məqsəd olaraq müəyyən edilmiş və qərarların qəbul edilməsi prosesində qadınların iştirak səviyyəsinin yüksəldilməsinin təmin edilməsi hədəfə alınmışdır. Bu proqramda gender bərabərliyinin təmin edilməsi sahəsində əsas problemlər erkən nikahlar, gender zorakılığı, qadınların əmək bazarında nisbətən az əmək haqqı olan sahələrdə çalışması, uşağa qayğı xidmətlərinin azlığı, qadınların qərar qəbuletmə səviyyəsində zəif təmsil olunması göstərilmişdir. Proqramda 2015-ci ilin sonunadək qərarların qəbul edilməsi prosesində qadınların iştirak səviyyəsinin yüksəldilməsi hədəfə alınmış və nəticədə parlamentdə, yerli icra hakimiyyətlərində və bələdiyyələrdə rəhbər vəzifəli qadınların sayı artmışdır.

*Lakin son on beş ildə gender bərabərliyi üzrə siyasətin bütün istiqamətlərini tam əhatə edə biləcək xüsusi proqram və ya fəaliyyət planı qəbul edilməmişdir*.

Gender bərabərliyinin təmin olunması məsələsini hədəfə alan digər mühüm sənəd Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli, 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyasıdır. Sənəd ölkə həyatının bütün sahələrində inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva edir və onun həyata keçirilməsi məqsədli dövlət proqramları vasitəsi ilə gerçəkləşdirilir.

*İnkişaf Konsepsiyasına əsasən Komitə tərəfindən aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla “Azərbaycan Respublikasında Gender Bərabərliyi üzrə 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı”nın layihəsi hazırlanmış və hökumətə təqdim edilmişdir*.

***Gender bərabərliyini və qadın (həmçinin qız uşaqlarının) hüquqlarını dəstəkləyən və hazırda qüvvədə olan strategiya, dövlət proqramı, milli fəaliyyət planları***

- *Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli, 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"*
- *Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"*
- *Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"*
- *Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"*
- *Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 24 fevral tarixli, 71s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"*
- *Azərbaycan Respublikası Prezidentinin 2020-cı il 02 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası".*

**BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri**

Azərbaycan BMT-nin üzvü olan dövlətlərin 2015-ci ilin sentyabr ayında keçirilən Dayanıqlı İnkişaf Sammitində dünya liderləri tərəfindən qəbul edilmiş "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan 17 məqsədi və 169 hədəfi özündə birləşdirən qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur.

Hər kəsi əhatə edən və universal xarakter daşıyan bu yeni məqsədlər Minilliyin İnkişaf Məqsədlərinin əldə etdiyi nəticələrə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir. Dayanıqlı İnkişaf Məqsədlərinin 5-ci məqsədi gender bərabərliyinə nail olmaq, həmçinin bütün qız və qadınların səlahiyyətlərini artırmağa həsr olunmuşdur.

2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəlikdən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 2016-cı ilin 6 oktyabr tarixli, 1066 nömrəli Fərmanı ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.

Dövlət Komitəsinin sədri bu Şuranın üzvüdür. Şura tərəfindən təsdiq edilmiş Azərbaycan Respublikası üçün prioritet hesab edilən məqsəd, hədəf və onlara uyğun göstəricilərin layihəsinə əsasən genderlə bağlı 5-ci məqsədə aid bütün doqquz hədəf prioritet olaraq seçilmişdir. *Bu hədəflər ayrı-seçkiliyin, gender əsaslı zorakılığın aradan qaldırılması, qadınların siyasi, iqtisadi və ictimai həyatda təmsilçiliyinin artırılması, qadınların ödənişsiz qayğı və işinin dəyərləndirilməsi, sosial, iqtisadi və səhiyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi, gender bərabərliyi üzrə güclü siyasət və qanunvericiliyin qəbul edilməsi ilə bağlıdır.*

DİM həyatın bütün sahələrində (siyasi, iqtisadi, sosial) hər iki cinsin təmsil olunması, onların öz hüquqlarını reallaşdıra bilməsi ədalətli, demokratik cəmiyyətin tələblərindən biridir. Hökumətlərin öz ölkələrində gender bərabərliyini hansı səviyyədə təmin etmələrinə beynəlxalq aləmdə xüsusi əhəmiyyət verilir.

BMT-nin ‘MAPS’ – Gündəliyin daxil edilməsi, Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı fəaliyyəti sürətləndirmə və siyasətə dəstək” – qrupu tərəfindən Azərbaycanın gender bərabərliyinin təmin edilməsi sahəsində apardığı siyasətin dayanıqlı inkişaf məqsədləri ilə səksən yeddi faiz uzlaşdığı müəyyən edilmişdir.

2017-ci il 10-19 iyul tarixlərində Nyu-Yorkda keçirilmiş Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycan Respublikasının Baş Nazirinin müavininin rəhbərliyi ilə Azərbaycanın 7 Dayanıqlı İnkişaf Məqsədi üzrə ilk Könüllü Milli Hesabatı təqdim edilmişdir. Həmin hesabatda 5-ci məqsədlə bağlı görülən işlərdə öz əksini tapmışdır. Hesabat BMT və üzv dövlətlər tərəfindən yüksək qiymətləndirilmişdir.

***Hesabatda 5-ci məqsədə tam nail olunması sahəsində həmçinin aşağıdakı problemlər və təkliflər əks olunmuşdur:***

- *Cinsi mənsubiyyətə görə baş vermiş ayrı-seçkilik halları da daxil olmaqla qadınlara qarşı zorakılığın bütün növlərinə, həmçinin məişət zorakılığına dair statistik məlumat bankının təşkili və etibarlı statistik qiymətləndirmə üçün müntəzəm olaraq dataların yığılması təmin edilməli (belə ki, qlobal, regional, milli və yerli səviyyədə inkişafın gedişatına aid göstəricilərin cinslər üzrə bölgüsü zəruridir, çünki bu cür gender statistikası bir çox hallarda ümumi statistikanın aydın açıqlamadığı problemləri nümayiş etdirir);*
- *Azərbaycanın regionlarında qadınlar hələ də ictimai problemlər ucbatından, məsələn, zorakılıq, siyasi və iqtisadi həyatdan sıxışdırılma, işəgötürmədə ayrı-seçkilik və peşə həyatı ilə şəxsi həyatın uzlaşdırılmasında çətinliklər səbəbindən heç də kişilərlə eyni imkanlara malik deyillər. Kişilər və qadınlar arasında gender bərabərliyi haqqında maarifləndirilmə işlərinin aparılmasına ehtiyac var;*
- *Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə yol vermiş hüquqi və fiziki şəxslərə qarşı lazımi tədbirlərin görülməsi, bu məqsədlə qanunvericilikdə müvafiq sahədə işlək mexanizmlərin formalaşdırılması (aşkar edilməsi, cəzalandırılması) məqsədəuyğundur;*
- *Azərbaycanda il ərzində orta hesabla qadınlara qarşı məişət zorakılığı hallarının insan alveri hallarından 8-9 dəfə çox olduğunu və ağır fasadlara səbəb olduğunu, ailələri sarsıtdığını nəzərə alaraq bu problemə diqqətin artırılması, xüsusilə məişət zorakılığı qurbanları üçün dövlət yardım mərkəzinin yaradılması çox önəmlidir. Bu istiqamətdə məişət zorakılığından zərər çəkənlər üçün hərtərəfli və səmərəli müdafiə vasitələri yaradılsa da, məişət zorakılığının qarşısının alınması üzrə “Milli Fəaliyyət Planı”nın qəbul edilməsinə ehtiyac vardır;*
- *Gender bərabərliyi sahəsində vəziyyəti öyrənmək məqsədilə müvafiq yerli strukturlarda, icmalarda, ailələrdə, idarə, müəssisə və təşkilatlarda araşdırma və monitorinqlərin aparılması və bunların əsasında yekun məruzənin hazırlanması;*
- *Qadın siyasətçilər, sahibkarlar və müxtəlif qeyri-hökumət təşkilatlarında təmsil olunanlardan ibarət “fəal qadınlar şəbəkəsi”nin yaradılması və onun gender bərabərliyinin təmin edilməsinə dəstək istiqamətində təşkilatlandırılması;*
- *Digər bir problem odur ki, 15-17 yaş həddində olan qız uşaqları tərəfindən hər il orta hesabla 3000-ə yaxın uşaq dünyaya gətirilir. Gender bərabərliyi üçün əsas göstəricilərdən biri olan reproduktiv sağlamlıq baxımından bu məsələ çox önəmlidir. Ölkədə uşaq evliliyinin statistikasının aparılması ilə bağlı tədbirlər görülməlidir (müvafiq istiqamətdə “metodologiya”nın işlənib hazırlanması faydalı ola bilər).*

## ◆◆◆ 1.3. Gender bərabərliyi mədəniyyətinin təbliği

**“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun 5.0.4-cü maddəsində dövlət siyasətinin əsas istiqamətlərindən biri olaraq gender bərabərliyi mədəniyyətinin təbliği göstərilir.**

Son onillik ərzində Azərbaycanda gender bərabərliyi mədəniyyətinin təbliği istiqamətində əhəmiyyətli işlər görülüb. Əldə olunmuş nəticələr göstərir ki, ötən əsrlə müqayisədə ictimai həyatın demək olar ki, bütün sahələrində kişilərlə bərabər qadınların fəallığı artmış, onlar arasında işsizliyin səviyyəsi azalmışdır. Artıq demək olar ki, kənd və şəhər yerində yaşayan qadınlar təxminən eyni imkanlara malikdir. Əvvəllər qızlar üçün ənənəvi olmayan təhsil sahələrində onların sayı artmaqdadır, erkən yaşda evlilik halları azalıb. Lakin bir sıra ictimai normalar, adətlər gender bərabərliyinin təmin edilməsinə əngəl yaradır. Azərbaycan cəmiyyətində məhz kişi və ya məhz qadın davranışı, maraqları, şəxsi keyfiyyətləri haqqında tarix boyu formalaşmış bəzi təsəvvürlər hələ də mövcuddur. Bundan ən çox əziyyət çəkən isə qadınlar və uşaqlardır. Bu stereotiplər qadınların insan, əmək və reproduktiv hüquqlarının pozulmasına, məişət zorakılığı və erkən nikah hallarının artmasına, qadınların təhsildən yayınmasına, inkişafına, məşğulluğunun azalmasına, ailə planlaşdırılmasına mənfi təsir göstərir.




2016-cı ilin aprel-iyul aylarında “Azərbaycanda Kişilərin gender bərabərliyinə münasibətinə dair” Tədqiqat aparılıb. Tədqiqat kişilərin gender bərabərliyi, gender rolları və dinamikası, valideynlik və qayğı məsələləri, ev təsərrüfatı daxilində münasibətlərin dinamikası, sağlamlıq (o cümlədən, cinsi və reproduktiv sağlamlıq və hüquqlar) və oğlan uşağına verilən üstünlük məsələləri ilə bağlı təcrübə və münasibətlərini öyrənmək məqsədi daşıyıb. Tədqiqatın keyfiyyət komponentində cinsi və reproduktiv sağlamlıqla (o cümlədən, oğlan uşağına verilən üstünlük) bağlı qərar qəbuletmə, rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən edilən zorakılıq, erkən nikah və ailə planlaşdırılması baxımından kişi və qadınların gender rolları, inancları və düşüncələrinin araşdırılmasına xüsusi diqqət ayrılmışdır. Tədqiqatın nəticələri göstərmişdir ki, gender və gender bərabərliyi ilə bağlı stereotiplər hələ də mövcud olsa da, gender bərabərliyinin təminatları baxımından ölkədə müsbət dinamikanın olduğu müəyyən edilmişdir. Tədqiqatda iştirak etmiş kişi və qadınların böyük bir hissəsi gender bərabərliyinin yetərincə yayıldığını zənn etsə də, əksəriyyət bərabərliyin təşviq edilməsi üçün daha çox işlərin görülməsi qənaətindədir.

*Dövlət Komitəsi aidiyyəti dövlət qurumları ilə birgə gender bərabərliyi mədəniyyətinin təbliği, gender stereotiplərinin aradan qaldırılması, insan hüquqları kontekstindən irəli gələrək gender rollarının düzgün izahı istiqamətində əhalinin müxtəlif təbəqələri arasında geniş maarifləndirmə işləri həyata keçirmişdir.*

- *Son beş il ərzində radio, televiziya vasitəsilə qadınların sosial, iqtisadi və siyasi həyatda fəal iştirakının üstünlüklərini (müsbət tərəflərini) göstərməklə, gender üzrə stereotiplərin aradan qaldırılmasının əhəmiyyəti barədə 500-ə yaxın məlumatlandırıcı verilişlər hazırlanıb. Qəzet və jurnallarda azərbaycan, rus və ingilis dillərində 100-dən çox yazı çap olunub. Dövlət Komitəsinin “facebook”, “youtube” və “twitter” sosial şəbəkələrində bu mövzuda təbliğat xarakterli materiallar yayımlanmış, video çarxlar nümayiş olunmuşdur. “Cəmiyyətdə formalaşmış gender stereotiplərinin aradan qaldırılmasında kütləvi informasiya vasitələrinin rolu” mövzusunda seminarlar və təlimlər keçirilmişdir.*

- "Tolerant cəmiyyətdə gender aspektləri və icmaların rolu", "Azərbaycanda qadın hüquqları və gender stereotipləri" mövzusunda dövlət qurumlarının, ekspertlərin və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə dəyirmi masalar təşkil olunmuşdur.

- Dövlət Komitəsi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə müxtəlif əhali qrupları üçün "İslamda qadın zorakılığına münasibət", "Qadın hüquqlarının qorunmasında dini icmaların rolu" mövzusunda tədbirlər keçirmişdir.

- Dövlət Komitəsi kütləvi informasiya vasitələrində gender məsələlərinin işıqlandırılması ilə bağlı son beş ildə iyirmi dəfə monitorinq keçirib. Monitorinqin nəticələri ilə bağlı Milli Mətbuat Şurasına, Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasına rəsmi müraciətlər olunmuş, eyni zamanda jurnalistlərin bu sahədə bilik və bacarıqlarının artırılması üçün təlimlər keçirilmişdir.

- Dövlət Komitəsi və Avropa İttifaqının TAİEX (Texniki Yardım və İnformasiya Mübadiləsi) proqramının birgə əməkdaşlığı çərçivəsində "Gender problemləri və Media" mövzusunda 2 günlük beynəlxalq seminar keçirilmişdir. Seminar çərçivəsində "Avropa Birliyində gender bərabərliyinin media vasitəsilə təbliği", "Azərbaycan və Avropa Birliyi ölkələri mediasında qadınların balanslı və stereotiplərdən uzaq təsvirinin ən uğurlu nümunələri", "Məişət və gender əsaslı zorakılıqlar zamanı qadınların kütləvi mətbuatda balanslı və stereotiplərdən uzaq təsvirinin yaradılmasının təbliği", "Azərbaycanda kütləvi mətbuatda və kütləvi mətbuat vasitəsilə gender bərabərliyinin təbliği sahəsində atıla biləcək növbəti addımlar" adlı 4 sessiya keçirilib.

- 2019-cu ilin yanvar ayında Avropa Şurasının və Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə keçirilən "Mediada gender bərabərliyi" mövzusunda 3 günlük təlimdə media nümayəndələri və jurnalistika fakültəsinin 4-cü kurs bakalavr, eləcə də magistr və doktorant tələbələri üçün təşkil olunan təlimlər beynəlxalq və yerli ekspertlər tərəfindən aparılıb.

- Gender stereotiplərinin aradan qaldırılması üzrə, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində aktiv fəaliyyət göstərən jurnalistlərin stimullaşdırılması üçün ildə bir dəfə müsabiqə keçirilir və fərqlənən jurnalistlər mükafatlandırılır.

- Ali təhsil müəssisələrinin tələbələrinin gender məsələləri ilə bağlı biliklərinin artırılması məqsədi ilə universitetlərin bütün fakültələrində "Genderə giriş" fənni tədris olunur. Bakı Dövlət və Qərbi Kaspi Universitetlərində isə "Gender və tətbiqi psixologiya" kafedrası fəaliyyət göstərir. Universitetlərin bütün fakültələrində "Genderə giriş" fənninin tədris olunması nəticəsində bakalavr səviyyəsində təhsil alan 17989 nəfər tələbə gender məsələləri ilə bağlı elmi biliklərə yiyələnmişlər.

- Dövlət Komitəsi 2018-2019-cu illərdə yuxarı sinif (X-XI siniflər) şagirdləri ilə "Lider qadınların görüşləri"ni təşkil etmişdir. Görüşlərin keçirilməsində məqsəd ölkənin ictimai-siyasi, sosial-mədəni və elmi həyatında öz fəallıqları ilə fərqlənən, rəhbər vəzifələrdə çalışan qadınların şagirdlərlə öz təcrübələrini bölüşməsi və dəyərli tövsiyələrini verməsidir.

***Gender bərabərliyi mədəniyyətinin təbliği sahəsində gələcəkdə aşağıdakı istiqamətlər üzrə fəaliyyətlərin həyata keçirilməsi zəruridir:***




- *ailələrdə gender münasibətlərinin düzgün formalaşdırılması mövzusunda layihələrin həyata keçirilməsi;*
- *gender bərabərliyi mədəniyyətinin təşviqi prosesində gender balansının təmin edilməsi;*
- *gender stereotiplərinin aradan qaldırılması istiqamətində əhalinin müxtəlif təbəqələri ilə maarifləndirmə tədbirlərinin davam etdirilməsi;*
- *bu istiqamətdə kütləvi informasiya vasitələrinin fəallığının artırılması.*

# 2. Gender bərabərliyinin təmin edilməsində dövlətin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi üzrə həyata keçirilən tədbirlər (Maddə 6)

***2.1. Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması***

***2.2. Kişilər ilə qadınlara bərabər imkanların yaradılması***

***2.3. Dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsi***

## ◆◆◆ 2.1. Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması

**Qanunun 6-cı maddəsinə əsasən dövlət cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üçün tədbirlər görür.**

Qanunda (2.0.4-cü maddə) cinsi mənsubiyyətə görə ayrı-seçkilik, seksual qısnama, cinsi əlamətə görə hüquqların bərabər həyata keçirilməsini məhdudlaşdıran və ya inkar edən istənilən fərq, istisna və ya üstünlük kimi müəyyən edilmişdir.

Cinsi mənsubiyyətə görə ayrı-seçkilikdən müdafiənin gücəndirilməsi vətəndaşın həyat və iş şəraitinin yaxşılaşdırılmasına xidmət edir ki, bu da ölkəmizin sosial və iqtisadi tərəqqisi üçün xüsusi önəm kəsb edir. Tədqiqatlar göstərir ki, cinsi zəmində ayrı-seçkiliyə kişilərə nisbətdə daha çox qadınlar məruz qalır.

Azərbaycan Respublikasının qanunvericiliyində cinsi mənsubiyyətinə görə ayrı-seçkilik yolverilməzdir. Bu əməlin törədilməsinə görə qanunvericilikdə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur (Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 154-cü maddəsi).

Qanunun 17-ci maddəsinə görə cinsi-mənsubiyyətə görə ayrı-seçkiliyə məruz qalan şəxslərə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada zərər ödənilir. Seksual qısnamaya məruz qalmış işçilərə zərər işəgötürən tərəfindən ödənilir.

*Dövlət Komitəsinin sorğularına əsasən aidiyyəti dövlət orqanlarından qeyd edilən məsələ ilə bağlı məlumatlar təqdim edilməmişdir.*

*Lakin buna baxmayaraq, cəmiyyətdə ayrı-ayrı sahələrdə, xüsusilə də ailə həyatında müxtəlif formalarda ayrı-seçkiliyin təzahürləri, xüsusilə də gender əsaslı zorakılıq olaraq ortaya çıxır və əsasən cəzasız qalır.*

Aparılan araşdırmaların nəticəsi olaraq cinsi mənsubiyyətə görə ayrı-seçkilik hallarının cəmiyyətdə, xüsusilə əmək hüquqlarının həyata keçirilməsi sahəsində birbaşa və ya dolayı olaraq özünü göstərdiyi müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən işəgötürən iş yerində cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin və seksual qısnamanın qarşısını almaq üçün tədbirlər görməlidir.

Dövlət Komitəsinin BMT-nin İnkişaf Proqramı və BMT Əhali Fondu ilə birgə "Özəl sektorda kişilər və qadınlar: imkan və çətinliklər" mövzusunda apardığı tədqiqatın nəticələrinə görə özəl şirkətlərdə bəzi işəgötürənlər yeni ailə qurmuş qadınlara qarşı açıq şəkildə ayrı-seçkilik edirlər. Çünki, onlar ödənişli analıq məzuniyyətini təmin etməkdən qaçır *(rəsmi məşğulluq)*, əvəzedici işçi axtarır (*qeyri-rəsmi məşğulluq*) və ya azyaşlı uşaq xəstələndiyi hallarda analara işdən yayınmağa imkan vermirlər. Hamiləlik və ya evlilik planları ilə bağlı suallar işə götürmək məqsədilə aparılan müsahibələr zamanı açıq şəkildə soruşulur və əksər respondentlər bu sualların qadın namizədlərin işə qəbul edilmək imkanlarına bilavasitə mənfi təsir göstərdiyini qeyd edirlər.

Tədqiqat nəticəsində əhəmiyyətli bir fakt da müəyyən edilib. Belə ki, kiçik biznes sahibkarları ailəli gənc qadınların işə götürülməsinin onlara müəyyən narahatlıq yaratdığını etiraf ediblər. Onların verdiyi məlumata görə analıq məzuniyyətində olan işçinin əvəzinə müvəqqəti götürülmüş işçinin əmək haqqının ödənilməsi, eyni zamanda digər əməkdaşa ödənişli analıq məzuniyyətinin verilməsi xeyli maliyyə resursları tələb edir və bu vəziyyət iri şirkətlərlə müqayisədə onlara ciddi ziyan vura bilər. Bu məsələ istər qadın, istərsə də kişi sahibkarlar üçün eyni dərəcədə çətinliklər yaradır. Mövcud vəziyyət ayrı-seçkilik və qeyri-rəsmi məşğulluq üçün imkanlar açır.

İş yerində seksual qısnama qadın hüquqlarının birbaşa pozulması deməkdir. Qadınlara qarşı olan gündəlik zorakılığın bu forması bir çox ölkələrdə geniş yayılıb və işləyən milyonlarla qadının həyatına təsir göstərir. Avropa İttifaqında qadınların 40-50 faizi iş yerində arzuolunmaz seksual qısnamalar, fiziki təmas və ya seksual qısnamanın digər formaları ilə üzləşir. **Aparılan araşdırma göstərir ki, seksual qısnama qorxusu özəl sektorda çalışan qadın respondentlər arasında daha geniş yayılıb.** Həmçinin, bu problem ailələr tərəfindən qadınların özəl şirkətlərdə çalışmasına etirazın səbəbi kimi tez-tez qeyd edilirdi. Lakin, bir qayda olaraq işəgötürənlər bu problemi sistemli şəkildə həll etmirlər. Tədqiqat zamanı müsahibədə iştirak etmiş özəl sektordan olan işəgötürənlərin əksəriyyəti öz iş yerlərində seksual qısnama ilə mübarizəyə dair daxili qaydalar və mexanizmlərə malik olmadıqlarını bildirdilər. Bir neçə qadın respondent özəl sektorda işləyərkən seksual qısnamaya məruz qaldığını və işdən çıxmaqdan başqa digər seçiminin olmadığını qeyd etdi.

Respondentlər (xüsusilə qadınlar), ümumilikdə seksual qısnamaya qarşı mübarizəni müvafiq siyasət, hüquq-mühafizə mexanizmləri, idarəetmə və kollektiv tədbirlər çərçivəsində deyil, daha çox ayrı-ayrı qadınların öz üzərlərinə düşən məsuliyyətlərlə əlaqələndirdilər.

***Qadınlar dövlət sektorunda mövcud olan məşğulluq imkanlarının stabil və yaxşı tənzimlənən olduğunu düşünür. Bir çox qadınlar özəl sektorda mövcud olan iş imkanlarının daha az tənzimlənən, qeyri-stabil, işləyən qadınların hüquqlarını pozan və buna görə cəza nəzərdə tutmayan işlər kimi təsvir edib.***

Dövlət Komitəsi dövlət və özəl sektorda cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin qarşısının alınması məqsədilə **genderə həssas yanaşmanın** təşviqi üzrə fəaliyyətləri gücləndirmişdir. Bu sahədə dövlət orqanlarında (qurumlarda), təşkilatlarda təyin edilmiş gender məsələləri üzrə məsul şəxslərin potensialının artırılması məsələsinə xüsusi diqqət yetirilmişdir. Eyni ilə özəl sektorda da, şirkətlərdə də bu cür şəxslərin təyin edilməsi üçün təbliğat tədbirləri həyata keçirilmişdir:

- 2019-cu ilərzində Dövlət Komitəsi Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti ilə birgə Asiya İnkişaf Bankının dəstəyi ilə Azərbaycanda gender məsul şəxslərin bilik və bacarıqlarının artırılmasına yönələn layihə həyata keçirmişdir. Layihə dövlət müəssisələrinin genderə-həssas idarəetməsini dəstəkləyən beynəlxalq metodologiya üzrə icra edilmişdir.

- 2019-cu ilin sentyabr ayı ərzində yerli icra hakimiyyətlərinin gender məsələləri üzrə məsul şəxsləri üçün idarəetmədə gender həssaslığının artırılması, cinsi mənsubiyyətə görə ayrı-seçkilik hallarının qarşısının alınması üzrə mövcud mexanizmlər barədə təlimlər keçirilmişdir.

Dövlət Komitəsinə daxil olan müraciətlərin təhlili göstərir ki, əmək qanunvericiliyindən irəli gələrək işəgötürən tərəfindən əmək hüquqlarının təmin edilməsində cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə yol verilməsi ilə bağlı ən geniş yayılmış hallar özəl sektorda hamilə və himayəsində azyaşlı uşağı olan analarla əmək müqaviləsinə xitam verilməsi, işə qəbul zamanı əks cinsin nümayəndələrinə üstünlüyün verilməsi, işləyən analar üçün nəzərdə tutulmuş güzəştlərin nəzərə alınmaması və seksual qısnama ilə bağlı olmuşdur.

*Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə yol vermiş hüquqi və fiziki şəxslərə qarşı lazımi tədbirlər görülməsi ilə bağlı Dövlət Komitəsi tərəfindən aidiyyəti dövlət orqanı qarşısında vəsatətlər qaldırılmış, lakin alınan cavab məktublarında ayrı-seçkilik hallarının sübuta yetirilmədiyi bildirilmişdir*.

*Təcrübə göstərir ki, qanunvericilikdə bu sahədə işlək mexanizmlərin formalaşdırılmasına, seksual qısnamaya görə məsuliyyətin müəyyən edilməsinə ehtiyac vardır. Həmçinin özəl şirkətlərdə gender bərabərliyi mədəniyyətinin formalaşdırılması üçün tədbirlər gücləndirilməli, əmək kollektivlərində həmkarlar ittifaqlarının yaradılması təşviq edilməlidir.*

## Gender əsaslı zorakılıq: məişət zorakılığının qarşısının alınması




Uzun müddət ərzində ölkəmizin təcrübəsində dövlət tərəfindən ailə münasibətlərinə müdaxilə kəskin qəbul edilirdi. Qanunvericilikdə zorakılıq əməllərinin yol verilməzliyi təsbit edilsə də, ailədaxili münasibətlərdəki ziddiyyətlər ailədən kənara çıxarılmayaraq onun daxili işi hesab edildiyindən, ailədaxili zorakılıq halları cəzasız qalırdı. Məişət zorakılığının latent xarakterli olması onunla mübarizəni çətinləşdirirdi.

Lakin dövlət orqanlarının qeyri-hökumət təşkilatları ilə birgə insan hüquqlarının müdafiəsi üzrə apardıqları kampaniyalar məişət zəminində törədilən zorakılıqların miqyasını aşkar etdi və cəmiyyətə çatdırdı. Nəticə olaraq 2010-cu ildə “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Qanunda məişət zorakılığının dörd növü (fiziki, psixoloji, iqtisadi xarakterli və cinsi) müəyyən edildi. Qanunvericiliyə müvafiq olaraq məişət zorakılığının qarşısının alınması sahəsində fəaliyyətləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili işlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirir.

Həmçinin Qanuna əsasən 10 qeyri-hökumət təşkilatı məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzləri kimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində akkreditasiyadan keçmişlər. Onlardan ikisi həmçinin sığınacaq xidməti göstərir (Bakı şəhərində “Təmiz Dünya” İctimai Birliyi və Gəncə şəhərində “Təmas” İctimai Birliyi. *Bu sahədə dövlət yardım mərkəzinin yaradılması aktual məsələ olaraq qalmaqdadır.*

Azərbaycan Respublikası Baş Prokurorluğunun statistik məlumatlarına əsasən 2019-cu il ərzində məişət zorakılığı ilə bağlı 1308 cinayət törədilmiş, bu cinayətlər üzrə 1358 nəfər zərərçəkmiş şəxs qismində tanınmışdır ki, onlardan 1038 nəfəri qadın, o cümlədən 1 nəfəri hamilə qadın, 12 nəfəri isə yetkinlik yaşına çatmayan qız olmuşdur.

Qeydə alınmış məişət zorakılığı halları əsasən fiziki zorakılıqla bağlı olur. Lakin sosioloji araşdırmalar göstərir ki, məişət zorakılığının ən geniş yayılmış forması psixoloji və iqtisadi xarakterli zorakılıqdır. Ailədə baş verən zorakılıq haqqında vəziyyətin ən son həddində polis orqanlarına məlumat verilir. Bir çox hallarda isə bu haqda uzun müddət informasiya verilmədiyindən zorakılığın ağır nəticələri ilə müşahidə olunan cinayətlər baş verir.

BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyinin təşəbbüsü ilə ABŞ (Amerika Birləşmiş Ştatları) Beynəlxalq İnkişaf Agentliyi tərəfindən maliyyələşdirilən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Statistika Komitəsi və yerli qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq çərçivəsində “Azərbaycanda gender əsaslı zorakılıqla mübarizə” sahəsində tədqiqat layihəsi həyata keçirilmişdir. Tədqiqat nəticələri göstərir ki, fiziki və yaxud cinsi zorakılığa məruz qalan qadınların təqribən 70%-i dövlət orqanlarına və ya rəsmi xidmət müəssisələrinə heç vaxt yardım üçün müraciət etməyiblər. Müraciət edən qadınların bunu etmələrinin səbəbi isə onların zorakılığa artıq dözə bilməməsi (63.6%) və yaxud çox ağır xəsarət alması (48.1%) ilə bağlı olur. Zorakılıqdan xəsarət almış qadınların 36%-i nəticədə tibbi yardıma ehtiyac duyub. Bu qadınların əksəriyyəti – 81%-i tibbi yardım alıb. 64.7%-i isə tibb işçilərinə xəsarətin həqiqi səbəbini deməyiblər.

BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyi və Dövlət Komitəsi tərəfindən “Azərbaycanda qadına qarşı zorakılığın iqtisadi nəticələri” ilə bağlı aparılmış araşdırmalar göstərir ki, qadınların şəxsi xərcləri onların aldıqları xəsarətlər və malik olduqları sağlamlıq pozuntularının ağırlığından asılı olaraq fərqli olsa da, qadınlar zorakılığın nəticələrini aradan qaldırmaq və zorakılığı törətmiş şəxslərdən ayrılandan sonra yeni həyata başlamaq üçün təqribən 1324 ABŞ dolları xərcləməli olublar. Bu xərclər qadınların orta əmək haqlarından yüksək olsa da, əksər hallarda zərərçəkənlərin özləri tərəfindən qarşılanıb. Respondentlərin təxminən 40%-i bildirib ki, onlara zorakılığın təsirlərini aradan qaldırmaq üçün digər ailə üzvləri və ya dostları kömək edib.

*Dövlət Komitəsi Azərbaycanda məişət zorakılığının qarşısının alınması istiqamətində çoxsaylı tədbirlər həyata keçirmişdir.*

- **“**Azərbaycan Respublikasında məişət zorakılığının aradan qaldırılması və onunla mübarizəyə dair 2020-2023-ci illər üçün Milli Fəaliyyət Planı**”**nın layihəsi hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir (hazırda qeyd edilən sənəd təsdiq edilmişdir).
- BMT-nin Əhali Fondunun dəstəyi ilə Azərbaycanda qadınlara qarşı zorakılığa dair Tədqiqat aparılmışdır.
- Məişət zorakılığı hallarının araşdırılması və qarşısının alınması, qısa müddətli mühafizə orderlərinin verilməsi üzrə xüsusi səlahiyyətlərə malik olmasından irəli gələrək yerli icra hakimiyyətlərində icra başçılarının sərəncamı ilə yaradılmış Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qruplarına qurumlararası əlaqələndirmənin gücləndirilməsi və bacarıqların artırılması istiqamətində təlimlər təşkil edilmişdir.
- Əhalinin müxtəlif təbəqələri arasında gender əsaslı zorakılığın aradan qaldırılması mövzusunda maarifləndirmə və məlumatlandırma tədbirləri həyata keçirilmiş və bu fəaliyyətlərə qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri geniş şəkildə cəlb edilmişdir.
- Aidiyyəti dövlət orqanları arasında “Məişət zorakılığının qarşısının alnması ilə bağlı 2016-2018-ci ilər üçün tədbirlər planı”nın imzalanmasına nail olunmuşdur.

- 25 noyabr – Beynəlxalq Qadınların zorakılıqdan müdafiəsi günü ilə əlaqədar olaraq hər il ölkə ərazisində "Gender Əsaslı Zorakılığa Qarşı 16 Günlük Fəallıq" Kampaniyası keçirilir.
- Azərbaycan Respublikasının şəhər və rayonlarında hüquq mühafizə orqanları, bələdiyyələr, icra və ictimai təşkilatların nümayəndələri üçün "Məişət zorakılığının ailədaxili münasibətlərə təsiri" adlı maarifləndirmə kampaniyası keçirilmişdir.
- Dövlət Komitəsi, BMT-nin Əhali Fondu, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, BMT-nin İnkişaf Fondu, Beynəlxalq Miqrasiya Təşkilatı və Rasional İnkişaf Uğrunda Qadınlar Cəmiyyəti ilə birgə 2008-ci ildən başlayaraq Azərbaycanda qaçqın və məcburi köçkün icmalarında gender əsaslı zorakılığın azaldılması məqsədilə 5 illik layihə həyata keçirmişdir. Layihədə 14 ərazi əhatə olunmuşdur.
- Dövlət Komitəsi Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti ilə birlikdə 2013-cü ildən başlayaraq "Cənubi Qafqazda Avropa standartlarına hüquqi yaxınlaşmanın dəstəklənməsi" regional proqramı çərçivəsində "Qadın hüquqları" üzrə layihəyə start vermişdir. Layihə çərçivəsində "Qadın hüquqları üzrə Bələdçi" kitabı hazırlanıb nəşr edilmişdir. Kitabda ailə münasibətlərində qadın hüquqları, insan alveri, məişət zorakılığı və s. mövzular öz əksini tapmışdır. Kitabın regionlarda yaşayan qadınlar arasında təbliği və yayılması məqsədilə regionlarda qadınlar üçün təlim-seminarlar keçirilmiş, kitab iştirakçılara paylanılmışdır.




- Dövlət Komitəsi Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı ilə birgə həyata keçirdiyi "Məcburi köçkünlər, qaçqınlar və sığınacaq axtaran şəxslər arasında cinsi və gender əsaslı zorakılığın qarşısının alınması və cavab tədbirləri" layihəsi çərçivəsində Sumqayıt və Bakı şəhərlərində yerləşən tam orta məktəblərdə təlim keçirmişdir. Təlimlərdə Ağdam, Şuşa, Qubadlı, Xocalı, Füzuli və Zəngilan rayonlarından olan məcburi köçkün qadınlar və kişilər iştirak etmişdir.
- Qanunvericiliyə əsasən Dövlət Komitəsi tərəfindən Məişət zorakılığı ilə bağlı məlumat bankı yaradılmışdır. Məlumat bankında baş vermiş məişət zorakılığı halları, məişət zorakılığı halları ilə bağlı dövlət orqanlarına müraciət etmiş şəxslər, məişət zorakılığı halları ilə bağlı aparılmış araşdırmalar və araşdırmaların nəticələri, məişət zorakılığı halları ilə əlaqədar məsuliyyətə cəlb edilmiş şəxslər, məhkəmə qərarları, o cümlədən valideynlik hüquqlarından məhrum edilmiş və ya valideynlik hüquqları məhdudlaşdırılmış şəxslər, eləcə də valideynlik hüquqları bərpa edilmiş və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ləğv edilmiş şəxslər, akkreditə edilmiş yardım mərkəzləri, onların fəaliyyəti barədə və digər məlumatlar toplanır və təhlil olunur.
- 2019-cu ilin dekabr ayında Dövlət Komitəsi, Vəkillər Kollegiyası və BMT-nin Azərbaycan nümayəndəli arasında məişət zorakılığından zərər çəkmiş şəxslər üçün hüquqi yardımın təşkilinə dair üçtərəfli memorandum imzalanmışdır. Bu sənəddə tərəflər məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquq və mənafelərinin hüquq-mühafizə orqanlarında və məhkəmələrdə müdafiəsi üzrə hüquqi dəstəyin verilməsi, hüquq nümayəndəliyinin təşkili, vəkillərin ixtisaslaşdırılması, bölgələrdə hüquqi yardım mərkəzləri ilə əlaqələrin gücləndirilməsi barədə razılığa gəlmişlər.

Dövlət Komitəsinə məişət zorakılığından zərər çəkmiş qadın və uşaqlarla bağlı daxil olan müraciətlər, kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə yayılan məlumatlar Komitənin imkanları daxilində araşdırılır və həmin şəxslərə lazımi dəstək göstərilir. Davamlı olaraq yerli

icra hakimiyyətləri, hüquq-mühafizə orqanları, zorakılığa məruz qalan şəxslərə sığnacaq xidməti göstərən qeyri-dövlət yardım mərkəzləri ilə əlaqəli şəkildə fəaliyyət davam etdirilir.

***Təcrübə göstərir ki, Azərbaycanda da ailə münaqişələrinin və onların doğurduğu ağır fəsadların vaxtında qarşısının alınması üçün təcili, təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zəruridir. Qeyd edilən istiqamətdə aşağıdakı bir sıra boşluqlar daha qabarıq şəkildə ortaya çıxır:***

- *ölkədə dövlət sığınacaqlarının olmaması səbəbindən Dövlət Komitəsinə müraciət edən məişət zorakılığına məruz qalmış və həyatı təhlükədə olan qadınların və uşaqların təhlükəsiz yerə yerləşdirilməsində çətinliklər yaranır. Hazırda istisnasız olaraq bu xidmətin göstərilməsi qeyri-hökumət sığınacaqlarının ixtiyarına buraxılmışdır.*
- *Qanunvericilikdə məişət zorakılığından zərər çəkmiş şəxslər üçün dövlət və qeyri-dövlət yardım mərkəzlərinin yaradılması nəzərdə tutulub. Hazırda 10 akkreditasiyadan keçmiş qeyri-hökumət yardım mərkəzindən yalnız ikisi davamlı olaraq fəaliyyət göstərir və bu da ehtiyacları tam ödəmir.*
- *Sosial çəhətdən risqli vəziyyətdə olan ailələrin müdafiəsi və hüquqlarının bərpası üçün təxirəsalınmaz, operativ, yerli ehtiyaclara uyğun və əlçatan sosial xidmətləri təmin edən sığınacaqların, yardım mərkəzlərinin, qaynar xətlərin olmaması, qurumlararası əlaqələndirmənin zəifliyi vəziyyəti daha da çətinləşdirir.*

Həmçinin nəzərə alınmalıdır ki, Dayanıqlı İnkişaf Məqsədlərində qadınlara və uşaqlara qarşı zorakılığın aradan qaldırılması əsas hədəflərdən biri kimi müəyyən edilmişdir. Ona görə də istər adi, istərsə də böhran vəziyyətində qadın və uşaqların dayanıqlı şəkildə müdafiəsini təmin etmək günümüzün ən vacib məsələlərindən birinə çevrilməkdədir.

***Gender əsaslı zorakılığın-məişət zorakılığının qarşısının alınması sahəsində görülən tədbirlərin səmərəliliyini artırmaq üçün aşağıdakı istiqamətlər üzrə işlərin görülməsi zəruridir:***

- *qanunvericiliyin təkmilləşdirilməsi, xüsusilə də zorakılıq əməllərinə görə cərimə ilə bağlı sanksiyalara, tərəflərin barışması əsasında inzibati işlərə hər dəfə xitam verilməsi məsələsinə yenidən baxılması, cinayət qanunvericiliyinə məişət zorakılığı ilə bağlı normaların daxil edilməsi, məişət zorakılığı hallarının araşdırılması üzrə mexanizmin təkmilləşdirilməsi;*
- *qurumlararası əlaqələndirmə üzrə mexanizmin yaradılması, yerli icra hakimiyyətlərində icra başçılarının sərəncamları ilə yaradılmış Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qruplarının fəaliyyətinin hüquqi tənzimlənməsi ilə bağlı sənədlərin qəbul edilməsi;*
- *məişət zorakılığından əziyyət çəkən şəxslərə təxirəsalınmaz və hərtərəfli yardımların göstərilməsi, bu məqsədlə beynəlxalq standartlara uyğun müvafiq infrastrukturun (dövlət yardım mərkəzləri, sığınacaqlar, qaynar xətt) yaradılması;*
- *bu sahədə dövlət orqanlarının (qurumların) insan resurslarının inkişaf etdirilməsi;*
- *məişət zorakılığının psixoloji, iqtisadi xarakterli növlərinin səbəbləri, aşkar edilməsi və cəzalandırılması ilə bağlı tədqiqatın aparılması;*
- *qabaqlayıcı tədbirlərin gücləndirilməsi, xüsusilə də maarifləndirmə və məlumatlandırma işlərinin rayon, kənd yerlərində daha geniş şəkildə aparılması;*
- *məişət zorakılığı ilə mübarizə sahəsində dövlət qurumlarının potensialının artırılması, qurumlararası əlaqələndirmənin gücləndirilməsi,*
- *bu sahədə qeyri-hökumət təşkilatlarının dəstəklənməsi.*

**Qız uşaqlarının erkən yaşda evliliyinin aradan qaldırılması**

Beynəlxalq sənədlərdə qız uşaqlarının erkən evliliyə məcbur edilməsi halları onlara qarşı cinsi mənsubiyyətə görə ayrı-seçkilik halı kimi qiymətləndirilir. Bu problemlər qadınların və qızların cəmiyyətdə öz hüquqlarını realllaşdırmasına ciddi əngəl yaradır və onları sosial cəhətdən həssas qrupa çevirir.

***Azərbaycanda erkən evliliyin qarşısının alınması istiqamətində həyata keçirilən aşağıdakı məqsədyönlü tədbirlərin nəticəsi olaraq, belə halların azalması müşahidə olunur.***

- *2011-ci ildə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə dəyişiklik edilərək minimal nikah yaşı qadınlar və kişilər üçün bərabərləşdirilərək 18 yaş müəyyənləşib. Çox üzrlü, obyektiv səbəblər olduğu təqdirdə nikah yaşı müvafiq icra hakimiyyəti tərəfindən 1 il azaldıla bilər.*
- *Həmin ildə qadını (o cümlədən yetkinlik yaşına çatmayan) nikaha məcbur etmə cinayət əməli kimi müəyyən edildi və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə eyni adlı 176-1-ci maddə əlavə edildi.*
- *Dövlət Komitəsi tərəfindən BMT-nin Uşaq Fondunun dəstəyi ilə "Erkən nikahlar uşaq hüquqlarının pozulmasıdır" mövzusunda tədqiqat aparılmış, həmçinin erkən evliliklərin səbəblərinin öyrənilməsi məqsədi ilə Dövlət Statistika Komitəsi tərəfindən seçmə statistik müayinə keçirilmişdir. Müayinənin nəticələrinə görə erkən yaşda ailə quranların 44%-i bunu yerli icra hakimiyyəti orqanının nikah yaşının bir il azaldılması barədə qərarı ilə, 56%-i isə qərarsız etmişlər. Respondentlərin 37%-i öz istəyi ilə, 22,4%-i valideynlərin təzyiqi ilə, 10,2%-i ailənin maddi vəziyyətinin aşağı olması səbəbindən, 6,2%-i qaçırılma nəticəsində erkən yaşda ailə qurduqlarını bildirmişlər. Erkən evlilik hallarının Aran, Dağlıq Şirvan, Abşeron və Lənkəran iqtisadi rayonlarında daha çox baş verdiyi, şəhər yerlərində 34,3%, kənd yerlərində isə 65,7% təşkil etdiyi müəyyən edilmişdir.*
- *Dövlət Komitəsi qeyd edilən problemin qarşısının alınması istiqamətində əhalinin müxtəlif təbəqələri arasında geniş maarifləndirmə və məlumatlandırma tədbirləri həyata keçirmişdir. 2019-cu ildə Komitəyə müxtəlif şəxslərdən daxil olmuş müraciətlər əsasında il ərzində 45 erkən evlilik halının qarşısı alınmışdır.*
- *Dövlət Komitəsi BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, BMT-nin Uşaq Fondu və Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti ilə birgə 2013-cü ildən başlayaraq qaçqın və məcburi köçkün qadınlar və qızlar üçün "Erkən Nikahlara Yox" adlı layihə həyata keçirmişdir. Layihə çərçivəsində "Erkən Nikahlar: 50 suala 50 cavab" adlı buklet çap olunmuş və əhaliyə paylanmışdır.*
- *Dövlət Komitəsi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə Bakı şəhəri və regionlarda erkən nikahların qarşısının alınması ilə bağlı maarifləndirici tədbirlər həyata keçirmişdir. Tədbirlərdə erkən nikah və təhsildən yayınma halları, onların fəsadları, aradan qaldırılması yolları barədə məlumat verilmişdir.*

Erkən yaşda evlilik halları dövlət qeydiyyatına alınmadığı üçün onların statistikası aparılmır. Lakin 15-17 yaşlı qadınlar tərəfindən doğulan uşaqların sayını əsas götürməklə təxminən uşaq nikahları ilə bağlı rəqəmləri müəyyən etmək mümkündür. Belə ki, statistikaya görə, 2011-ci ildə belə qadınlar tərəfindən doğulan uşaqların sayı 4392 idisə, 2019-cu ildə bu rəqəm 2320 olub. Bu isə rəqəmlərin iki dəfə azalması deməkdir.



Ancaq bununla belə 2129 uşağın doğulması təqribən 3000 və ya 3500 uşaq evliliyindən xəbər verir.

Azərbaycan Respublikası Daxili İşlər Naziriliyinin təqdim etdiyi məlumata əsasən 2019-cu ildə yetkinlik yaşına çatmayan şəxsi nikaha məcbur etməyə görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 176-1-ci maddəsinə əsasən cinayət işi açılmamışdır. Lakin evlilik məqsədi ilə qız uşağının oğurlanmasına görə doqquz fakt üzrə cinayət işi başlanılmışdır. Təcrübə göstərir ki, cinayət işlərinin açılmamasının əsas səbəbi nikaha məcbur etmənin sübuta yetirilməməsidir.

***Erkən evliliyin qarşısının alınması üzrə görülən tədbirlərin səmərəliliyini artırmaq üçün aşağıdakı istiqamətlər üzrə işlərin görülməsi zəruridir.***

- *qız uşaqlarının erkən yaşda nikaha məcbur edilməsi faktının müəyyən edilməsi bəzən hüquq-mühafizə orqanlarına çətinlik yaratdığı üçün, bu halların araşdırılması üzrə prosedurların təkmilləşdirilməsi;*
- *qanunvericilikdə “erkən yaşda evlilik (uşaq evliliyi)” anlayışının və bu halların qarşısının alınması üzrə dövlət orqanlarının və valideynlərin məsuliyyətinin müəyyən edilməsi;*
- *rəsmi nikah olmadan dini kəbin kəsmənin qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi;*
- *qabaqlayıcı tədbirlərin gücləndirilməsi, xüsusilə də maarifləndirmə və məlumatlandırma işlərinin rayon, kənd yerlərində daha geniş şəkildə aparılması;*
- *qız uşaqlarının təhsildən yayınması ilə bağlı monitorinqlərin gücləndirilməsi;*
- *dövlət qurumlarının potensialının artırılması, qurumlararası əlaqələndirmənin gücləndirilməsi;*
- *bu sahədə qeyri-hökumət təşkilatlarının dəstəklənməsi.*

**Doğulan uşaqlar arasında cins balansının pozulması, oğlan uşaqlarına üstünlüyün verilməsi (selektiv abortlar)**

Ölkəmizdə ən geniş yayılmış cinsi mənsubiyyətə görə ayrı-seçkilik hallarından biri də selektiv abortlardır. Bir çox ailələrdə qadınların reproduktiv sağlamlıq hüquqları qorunmur, ailə üzvlərinin istəyinə əsasən qadın hamiləliyi süni şəkildə dayandırmağa məcbur edilir. Bəzən də qadın yalnız qız uşaqları dünyaya gətirdiyi üçün tərk edilir.

Demoqrafik təhlillər göstərir ki, doğulan uşaqların cins nisbəti (hər 100 qız uşağına düşən oğlan uşaqlarının sayı) bioloji normaya uyğun olaraq 105-107 təşkil edir. *Azərbaycanda diri doğulanların cins strukturunda 1990-cı illərin əvvəllərindən oğlan uşaqlarının artımı müşahidə olunur və hazırda bu nisbət hər 100 qız uşağına 114 oğlan uşağıdır. Cins nisbətinin pozulmasına görə Azərbaycan dünyada ikinci yerdə qərarlaşıb.*

Doğulanların cins nisbətinin pozulması ümumi əhalinin cins strukturunu da dəyişir. Əhalinin siyahıyaalınmalarının məlumatlarına əsasən, 1989-cu ildə hər 1000 kişiyə 1051 qadın, 1999-cu ildə1048, 2009-cu ildə 1021 qadın düşmüşdür. *Bu gün isə ölkədə hər 1000 kişiyə 1003 qadın düşür.*

*Lakin təəssüf olsun ki, aparılmış sosioloji sorğuların nəticələrinə görə hələ də kişilərin 49,5%-i, qadınların isə 22,5%-i ailədə qız uşağının olmasını maddi yük kimi qəbul edir.*

*Azərbaycanda selektiv abortların qarşısının alınması istiqamətində aşağıdakı tədbirlər həyata keçirilmişdir:*

- *Dövlət Komitəsi BMT-nin Əhali Fondu ilə birgə ilk dəfə olaraq "Azərbaycanda doğulan uşaqların cinsi nisbətinin pozulmasına zəmin yaradan mexanizmlər: keyfiyyət və kəmiyyət əsaslı tədqiqat" aparmışdır. "Doğulan uşaqların cinsə görə nisbətinin pozulmasının səbəbləri: Mövcud vəziyyətin təhlili və problemin həlli yolları" mövzusuna həsr olunmuş konfransda həmin tədqiqatın nəticələri ictimaiyyətə təqdim edilmişdir.*
- *BMT-nin Əhali Fondu, Niderland Krallığı və Avropa İttifiaqının dəstəyi ilə ölkəmizdə uşağın cinsinə görə selektiv abortların qarşısının alınması, ailədə və cəmiyyətdə qız uşaqlarına dəyər verilməsi, gender əsaslı zorakılıqla mübarizə məqsədilə 2016-2019-cu illərdə layihə həyata keçirilmişdir. Layihə çərçivəsində kütləvi informasiya vasitələrinin nümayəndələri, gənc oğlanlar, gənc atalar, kişilər üçün ailədə və cəmiyyətdə qız uşaqlarına dəyər verilməsi ilə bağlı bir neçə təlimlər keçirilmiş, sosial çarxlar hazırlanmışdır. 11 oktyabr "Beynəlxalq Qızları Müdafiə günü" ilə bağlı " Atalar və Qızlar" foto sərgi, 2 festival keçirilib, "Qız yükü" adlı tamaşanın ictimai baxışı olmuşdur.*
- *2019-cu il ərzində BMT Əhali Fondu, Avropa İttifaqı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə "Oğlan uşaqlarına verilən üstünlüyün qarşısının alınması və qızların dəyərinin təşviq edilməsi üzrə Qlobal Proqram" həyata keçirilmişdir.*

***Selektiv abortların qarşısının alınması üzrə görülən tədbirlərin səmərəliliyini artırmaq üçün aşağıdakı istiqamətlər üzrə işlərin görülməsi zəruridir.***

- *"Ailə planlaşdırılması və reproduktiv sağlamlıq haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi (BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitəsinin ölkəmizlə bağlı tövsiyələrində də bu öz əksini tapıb);*
- *doğulan uşaqlar arasında cins balansının pozulması hallarının qarşısının alınması ilə bağlı maarifləndirmə tədbirlərinin gücləndirilməsi;*
- *selektiv abortların fəsadları haqqında qabaqlayıcı tədbirlərin gücləndirilməsi, xüsusilə də maarifləndirmə və məlumatlandırma işlərinin rayon, kənd yerlərində daha geniş şəkildə aparılması.*

## 2.2. Kişilər ilə qadınlara bərabər imkanların yaradılması

Qanuna əsasən bərabər imkanlar dedikdə insan hüquqlarının həyata keçirilməsində qadınlar və kişilər üçün yaradılan bərabər şərait və təminatlar nəzərdə tutulur. Müsbət beynəlxalq təcrübə göstərir ki, ictimai həyatın bütün sahələrində hər iki cins üçün bərabər imkanların yaradılması ilk növbədə gender analizinin aparılmasından və əldə olunan göstəricilərə uyğun büdcə vəsaitlərinin ayrılmasından birbaşa asılıdır. Bu cür yanaşma dövlət idarəçiliyinin səmərəliliyinin artırılması ilə yanaşı həyat keyfiyyətinin yüksəldilməsinə xidmət göstərə bilər.




## CEDAW və Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələrək genderə həssas büdcənin tətbiqi

**Gender büdcəsi** – bütün səviyyələrdə büdcənin həyata keçirilməsində və qiymətləndirilməsində gender amilinin nəzərə alınmasını, gender indikatorlarının işlənib hazırlanmasını və gender balansının gözlənilməsini nəzərdə tutur. Gender bərabərliyini təmin etmək üçün "genderə həssas büdcə"nin tətbiq edilməsi mühüm aktuallıq kəsb edir. Gender büdcəsi mərkəzi və yerli büdcə ayırmalarında qadınların və kişilərin fərqli sosial ehtiyaclarının nəzərə alınmasını da əhatə etməlidir.

*Dövlət Komitəsi tərəfindən gender büdcəsinin təşviqi istiqamətində həyata keçirilən tədbirlər:*

- Dövlət Komitəsi OXFAM GB Təşkilatı ilə birgə "Büdcə və gender: dövlət büdcəsinin gender təhlili" adlı araşdırma materialı hazırlamışdır. Eyni zamanda geniş ictimaiyyətin, habelə qadınların büdcə prosesi ilə bağlı məlumatlılığının artırılması, gender büdcəsi təhlilinin metodoloji bazasının gücləndirilməsi istiqamətində bir sıra addımlar atılmışdır.
- Dövlət Komitəsi və Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının icra etdiyi Yaxşı Yerli İdarəetmə Proqramının birgə təşkilatçılığı ilə gender bərabərliyini təmin etmək üçün "Gender həssas büdcə" mövzusunda təlim kursu keçirilmişdir.

*Ölkədə gender büdcəsinin formalaşdırılması ilk növbədə gender bərabərliyini tənzimləyən Qanuna və büdcə qanunvericiliyinə müvafiq müddəaların daxil edilməsini zəruri edir.*

## Gender bərabərliyi üzrə statistikanın emalı

Gender bərabərliyinin təmin edilməsi sahəsində vəziyyətin monitorinqi, qiymətləndirilməsi və gələcək fəaliyyətlər üzrə prioritetlərin müəyyən edilməsi üçün çoxsaylı statistik göstəricilərin emalı olduqca önəmlidir.

"Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli, 289 nömrəli fərmanına uyğun olaraq Dövlət Statistika Komitəsi hər il Azərbaycan və ingilis dillərində "Azərbaycanda qadınlar və kişilər" adlı statistik məcmuə hazırlayır və nəşr edir.

Azərbaycan Respublikasında gender bərabərliyini əks etdirən kompleks statistik göstəricilər sisteminin 1999-cu ildə birinci, 2010-cu ildə (273 göstərici) ikinci versiyası, 2012-ci ildə isə (310 göstərici) üçüncü təkmilləşdirilmiş versiyası hazırlanmışdır.

Gender statistikasını əks etdirən göstəricilər sisteminin üçüncü variantı statistik məlumat kitabçası şəklində tərtib edilmiş, burada göstəricilərin adları, ölçü vahidləri və təqdim edilmə dövriliyi, informasiya mənbələri, eləcə də işlənib hazırlanma proqramı öz əksini tapmışdır.

Göstəricilər sistemi təkcə Dövlət Statistika Komitəsinin məlumatlarından deyil, digər qurumların məlumatlarından da ibarətdir. Göstəricilər sistemi hazırlanarkən beynəlxalq, xüsusilə də İsveç Milli Statistika Bürosunun təcrübəsi nəzərə alınmışdır.

Göstəricilər qadın və kişilərin cəmiyyətin sosial-iqtisadi həyatında iştirakının müxtəlif aspektlərini əks etdirən on bölmə üzrə qruplaşdırılmışdır: **əhali, səhiyyə, təhsil və elmi kadrlar, məşğulluq və işsizlik, əhalinin iqtisadi fəallığına dair statistika müşahidəsi, balıqçılıq və meşə təsərrüfatı, həyat səviyyəsi və sosial təminat, parlament, hüquqpozmalar və beynəlxalq müqayisələr.**

Gender statistikasına dair tələb olunan yeni göstəricilərin əlavə olunmasının təmin edilməsi məqsədilə həmin məcmuəyə balıqçılıqla məşğul olan, meşə məhsullarının tədarükündə iştirak etmiş, nəqliyyat vasitələrinin idarə olunması üçün sürücülük vəsiqəsini alan şəxslərin gender bölgüsü və əhalinin yaş qrupları üzrə ölümün əsas səbəbləri, 60 yaşda olan əhalinin gözlənilən ömür uzunluğu, piylənmədən əziyyət çəkən uşaqların cins və yaş üzrə bölgüsü, qadın məsləhətxanaları və qadın məsləhətxanaları olan tibb müəssisələrinin sayı, fəaliyyət növləri üzrə fərdi sahibkarların gender bölgüsü, natamam məşğul olanların həftə ərzində iş saatları və cins üzrə bölgüsü, gender bərabərsizlik indeksi və s. kimi yeni göstəricilər daxil edilmişdir.

Hər il mütəmadi olaraq həmin məcmuəyə yeni göstəricilər əlavə edilir.

2012-ci ildə Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsində “Gender” bölməsi yaradılmışdır və gender aspektində yeni və maraqlı məlumatlar Komitə tərəfindən nəşr olunan “Azərbaycanda qadınlar və kişilər” adlı illik statistik məcmuəyə daxil edilir. Statistik məcmuə və gender statistikası üzrə göstəricilər sistemi Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsinin (www.stat.gov.az) “Gender” bölməsində yerləşdirilmişdir.

*Gender statistikasının daha da təkmilləşdirilməsi üçün müvafiq sahələr üzrə statistik göstəricilərin gender auditinin aparılması zəruridir. Xüsusilə iqtisadi-sosial hüquqların təmin edilməsi, gender zorakılığının qarşısının alınması, yerlərdə dövlət xidmətlərindən istifadə üzrə statistikanın inkişafına ehtiyac vardır.*

**Gender bərabərliyinin təmin edilməsi sahəsində aparılmış tədqiqatlar**

- *Dövlət Komitəsi BMT-nin Əhali Fondu ilə birgə “Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulmasına zəmin yaradan mexanizmlər: keyfiyyət və kəmiyyət əsaslı Tədqiqat” (2012-ci il);*
- *Dövlət Statistika Komitəsinin 2015-ci ildə keçirdiyi “Qızların erkən nikaha daxil olması və rəsmi nikahdan kənar doğum hallarının öyrənilməsinə dair” statistik müayinə;*
- *BMT-nin Əhali Fondu ilə birgə “Kişilərin gender bərabərliyinə münasibətinə dair Tədqiqat” (2017-ci il);*
- *BMT-nin Əhali Fondunun Dövlət Komitəsi ilə birgə hazırladığı “Azərbaycanda qadına qarşı zorakılığın iqtisadi nəticələri” adlı Tədqiqat;*
- *BMTİP, BMT Əhali Fondu və Komitənin birgə layihəsi əsasında “Özəl sektorda kişilər və qadınlar: imkan və çətinliklər” mövzusunda Təhlil (2018-ci il).*

## ◆◆◆ 2.3. Dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsi

Mövcud vəziyyəti nəzərə alaraq, Qanunun 6-cı maddəsinə əsasən dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində kişilər ilə qadınlara bərabər imkanların yaradılması istiqamətində həyata keçirilən tədbirlər əsasən qadınlara hədəflənmişdir. Qadınların ictimai-siyasi fəallığının artırılması, onların liderlik bacarıqlarının inkişaf etdirilməsi, bu sahədə mövcud stereotiplərin aradan qaldırılması əsas istiqamətlər kimi müəyyən edilmişdir.




*Qadınların ictimai-siyasi fəallığının artırılması istiqamətində Dövlət Komitəsi tərəfindən aşağıdakı tədbirlər həyata keçirilmişdir:*

- *Qadınların qərar qəbul etmədə rolunu artırmaq, yerli qadınlar tərəfindən irəli sürülən sülh təşəbbüslərinə və yerli səviyyədə münaqişələrin həllinə yönəlmiş proseslərə dəstək vermək məqsədilə Dövlət Komitəsi Qadın Problemlərinin Tədqiqat Birliyi-Qadın İnstitutu ilə birlikdə BMT-nin Təhlükəsizlik Şurasının 1325 saylı Qətnaməsinin 10 illiyinə həsr edilmiş “Nailiyyətlər, Perspektivlər” mövzusunda İsveçin “Kvinna till Kvinna” fondunun dəstəyi ilə konfrans keçirmişdir.*

- *Bakıda və regionlarda “Qadın və inkişaf”, “Azərbaycanda qadın liderliyinin artırılması və qərarvermə prosesində iştirakının gücləndirilməsi” mövzularında konfranslar, «Qadınların yerli özünüidarəetmədə və qərarvermə prosesində iştirakının gücləndirilməsi” mövzusunda dəyirmi masalar keçirilmiş, “Qadın Liderliyi üzrə Mükafat”ların qaliblərinə diplomlar təqdim edilmişdir.*

- *Qarşılıqlı əməkdaşlıq çərçivəsində Belarus Respublikasını təmsil edən nümayəndə heyəti ilə birgə “Gender bərabərliyinin təmini və qadınların irəli çəkilməsi” mövzusunda dəyirmi masa, Amerika Beynəlxalq İnkişaf Agentliyi, BMT-nin Əhali Fondu, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, BMT-nin İnkişaf Proqramı, Beynəlxalq Miqrasiya Təşkilatı, “Counterpart İnternational” Təşkilatı və Rasional İnkişaf Uğrunda Qadınlar Cəmiyyəti ilə birgə 16 günlük Fəallıq Kampaniyası çərçivəsində “Qadınlara səlahiyyət, Cəmiyyətə tərəqqi” adlı konfrans keçirmişdir.*

- *2012-ci ildən başlayaraq Dövlət Komitəsi və “Qadınlar Bələdiyyələrin İnkişafı Uğrunda” İctimai Birliyi ABŞ Beynəlxalq İnkişaf Agentliyinin maliyyə dəstəyi ilə Respublikamızın bölgələrində “Yerli İdarəetmədə Qadın Liderliyi” adlı layihə həyata keçirmişdir. Layihənin məqsədi CEDAW-ya dair maarifləndirmə kampaniyası, qadın namizədlərin bələdiyyə seçkilərində iştirakının artırılması, qadın liderliyinin təbliği üçün ictimai vəkillik və Azərbaycanda gender siyasətinin gücləndirilməsindən ibarətdir. Layihə çərçivəsində 2013-2015-ci illərdə regionlarda qadınlar üçün “Azərbaycanda qadın liderliyinin artırılması və qərarvermə prosesində iştirakının gücləndirilməsi” mövzusunda təlim–seminarlar keçirilmişdir.*

- *Bələdiyyələrdə yeni təmsil olunan qadınların fəaliyyətini dəstəkləmək nöqteyi-nəzərindən “Yerli idarəetmədə qadın liderliyinin təşviqi üçün strategiyalar” adlı konfrans keçirilmişdir. Konfrans bələdiyyə üzvü olan qadınlara liderlik bacarıqlarının gücləndirilməsi üçün strategiyaların müzakirəsi və mübadiləsi imkanı yaratmışdır. Həmçinin konfransda beynəlxalq təcrübəyə əsaslanaraq qadın bələdiyyə liderlərinin qarşılaşdığı spesifik problemlər və yerli siyasətdə onların liderlik potensialının gücləndirilməsi üçün müxtəlif strategiyalar konfrans iştirakçıları tərəfindən işçi qruplarında geniş müzakirə olunmuşdur.*

- *Dövlət Komitəsinin Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı ilə birgə bələdiyyə üzvləri və sədrləri üçün “Dayaq” Mentorluq Proqramı həyata keçirilmişdir. “Dayaq” Mentorluq (2012-2015) Proqramı çərçivəsində “Fəal ol” və “Səmərəli ünsiyyət” adlı kitabçalar hazırlanıb çap edilmiş, əhaliyə paylanmışdır. 2012-ci ildə 50 nəfər, 2013-cü ildə 100 nəfər, 2014-cü ildə 250 nəfərə yaxın, 2015-ci ildə 400 nəfər, 2016-ci ildə 750 nəfər, 2017-ci ildə 450 nəfər bələdiyyə üzvü, sədri, icma nümayəndələri təlimdən bəhrələnmişdir. Ümumilikdə, 2000 nəfərə yaxın insan bu proqramdan bəhrələnmişdir.*

- ***30 may 2018-ci il tarixində Dövlət Komitəsi tərəfindən “Azərbaycan qadınına seçki hüququnun verilməsinin 100 illiyinə həsr olunmuş Qadınların V Forumu”**keçirilmiş, “Azərbaycan qadınına seçki hüququnun verilməsinin 100 illiyinə həsr olunmuş Qadınların V Forumu”nun Qətnaməsi qəbul edilmişdir.*

- *2019-cu ilin sentyabr ayı ərzində regionlarda yerli İcra Hakimiyyətlərinin İctimai-siyasi və humanitar məsələlər üzrə müavinləri, İctimai-siyasi və humanitar məsələlər və Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin əməkdaşları üçün liderlik potensialının, eləcə də müvafiq ərazidə vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi və gender bərabərliyi üzrə dövlət siyasətinin həyata keçirilməsi sahəsində bilik və bacarıqlarının artırılması məqsədi ilə "Gender və Liderlik" mözusunda təlimlər keçirilmişdir.*
- *Hər il Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerli icra hakimiyyəti orqanlarının nümayəndələri, yerli özünüidarəetmə orqanları (bələdiyyələr) üçün təkmilləşdirmə kursları keçirilir.*

**Əvvəlki illərlə müqayisədə dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində qadınların təmsilçiliyində aşağıdakı irəliləyişlər əldə olunmuşdur:**

- **qanunvericilik orqanında**

2005-ci ildə üçüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisində qadınlar 14 nəfər (11,2%) təşkil edirdisə, 2020-ci ildə altıncı çağırış Azərbaycan Respublikasının Milli Məclisində 22 nəfər (18,2%) olmuşdur. Milli Məclisin sədri qadın seçilmişdir.

*Cədvəl 1.*

**1995-ci ildən başlayaraq 2019-cu ilədək Azərbaycan Respublikası Milli Məclisinə keçirilən seçkilərin nəticəsində parlamentdə mövcud seçkili və digər vəzifələrdə gender nisbəti aşağıdakı kimi olmuşdur**

| | Ümumi sayı | | Sədr və müavinləri | | Komitə sədrləri | | Komitə sədrlərinin müavinləri | | Dostluq qruplarının rəhbərləri | | Beynəlxalq təşkilatlarda nümayəndə heyətlərinin rəhbərləri |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın | Qadın |
| I çağırış 1995-2000 | 110 | 15 | 3 | 0 | 8 | 1 | 7 | 2 | 30 | 2 | |
| II çağırış 2000-2005 | 111 | 14 | 3 | 1 müavin | 10 | 1 | 9 | 2 | 50 | 10 | |
| III çağırış 2005-2010 | 112 | 13 | 3 | 1 müavin | 10 | 1 | 10 | 1 | 60 | 9 | 2 |
| IV çağırış 2010-2015 | 105 | 20 | 3 | 1 müavin | 10 | 1 | 10 | 1 | 66 | 9 | 2 |
| V çağırış 2015-2019 | 105 | 20 | 3 | 1 müavin | 13 | 2 | 11 | 4 | 73 | 9 | 2 |
| VI çağırış 2020 | 98 | 22 | 3 | 1 sədr | 13 | 2 | 12 | 3 | 69 | 13 | 3 |

- **İcra hakimiyyəti orqanlarında**

1 nəfər qadın nazir vəzifəsinə təyin edilmişdir, nazir müavini olan qadınların sayı 3 nəfərdən 8-nəfərə yüksəlmiş, 3 nəfər səfir və 1 nəfər konsul qadındır.

Əksər yerli icra hakimiyyəti başçılarının müavinlərindən biri qadındır. 2013-cü ildə bu rəqəm 35 nəfər idisə, hazırda 76 nəfərə çatmışdır.

*Cədvəl 2.*

**Rəhbər vəzifədə çalışan qadınların sayı, nəfərlə**

| | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|
| Vitse-prezident | - | 1 | 1 | 1 |
| Qadın nazir | 1 | 1 | 1 | 1 |
| Qadın nazir müavini | 3 | 3 | 6 | 8 |
| Qadın Dövlət Komitəsi sədri | 2 | 2 | 2 | 2 |
| Qadın Dövlət Komitəsi sədrinin müavini | 2 | 3 | 3 | 3 |
| Qadın Yerli icra hakimiyyəti başçısı | 1 | 1 | 1 | 1 |
| Yerli icra hakimiyyəti başçısının qadın müavini | 79 | 77 | 79 | 76 |
| Ombudsman | 2 | 2 | 2 | 2 |

- **məhkəmə hakimiyyətində**

Hakim qadınların sayı 78 nəfərdir, yəni 14% təşkil edir.

*Cədvəl 3.*

**Hakimlərin cins üzrə bölgüsü**

| **İllər** | **Sayı, nəfərlə** | | **Cins bölgüsü, faizlə** | |
|---|---|---|---|---|
| | **qadınlar** | **kişilər** | **qadınlar** | **kişilər** |
| 2015 | 62 | 451 | 12 | 88 |
| 2016 | 61 | 444 | 12 | 88 |
| 2017 | 57 | 423 | 12 | 88 |
| 2018 | 84 | 487 | 15 | 85 |
| 2019 | 78 | 460 | 14 | 86 |

Azərbaycan Respublikasının prokurorluq orqanlarında rütbə nəzərdə tutan vəzifələrdə çalışan işçilərdən 81 nəfəri qadın olmaqla, prokurorluq işçilərinin sayının 7%-ni təşkil edir. Prokuror qadınların sayında artım müşahidə olunur, hazırda 6 prokuror qadın təyin edilmişdir.

- **yerli özünüidarəetmə orqanlarında**

2019-cu ildə bələdiyyə seçkiləri ərəfəsində bələdiyyələrdə qadın iştirakçılığının sayının artırılması məqsədilə Komitə tərəfindən şəhər və rayonlarda bir sıra tədbirlər həyata keçirilmişdir. Və nəticədə 2004-cü ildə keçirilən bələdiyyə seçkilərində bələdiyyə üzvü olan qadınlar 4% idisə, 2019-cu ildə 39% olmuşdur.




Son dövrün aktual problemləri olan gender əsaslı zorakılıq halları nəticəsində təhsildən yayınma, erkən evlilik, insan alveri və əmək bazarında yaranan problemlərin qarşısının alınmasında yerli özünüidarəetmə orqanlarının rolu böyükdür. Qeyd edilən problemlərin həlli istiqamətində Komitənin ölkəmizin şəhər və rayonlarında təşkil etdiyi tədbirlərdə yerli özünü idarə etmə orqanlarının nümayəndələri də yaxından iştirak etmişlər. Beləki, ötən il ərzində 31 şəhər və rayon üzrə yerli özünü idarə etmə orqanlarının iştirakı ilə müxtəlif maarifləndirici tədbirlər həyata keçirilmişdir.

2019-cu ildə Komitə və Almaniya Əməkdaşlıq Təşkilatının (GİZ) birgə təşkilatçılığı ilə "Bələdiyyələrdə qadın iştirakçılığı: hüquqi və institusional mexanizmlər, gender bərabərliyi yanaşmasının təşviqi" mövzusunda konfrans keçirilmişdir.

### *İctimai sahədə qadınların təmsilçiliyinin artırılması üzrə gələcək fəaliyyət istiqamətləri:*

- *gender bərabərliyinə dair Milli Fəaliyyət Planının qəbul edilməsi*
- *qadınların sülh və təhlükəsizliklə bağlı proseslərdə iştirakına dair Milli Fəaliyyət Planının qəbul edilməsi*
- *qadınların liderlik qabiliyyətlərinin inkişafı üzrə fəaliyyətlərin davam etdirilməsi*
- *bələdiyyə üzvü olan qadınların iş keyfiyyətinin artırılması istiqamətində tədbirlərin gücləndirilməsi*
- *bələdiyyələrdə gender komissiyalarının yaradılması*
- *ictimai həyatın bütün sahələrində, dövlət və özəl sektorlarda idarəetmə və qərarqəbuletmə səviyyəsində qadınların kişilərlə bərabər təmsilçiliyinin artırılması*

# 3. Gender bərabərliyinin sahələr üzrə təmin edilməsi (Maddə 7-16)

*3.1. Əmək hüquqlarının həyata keçirilməsində gender bərabərliyinin təmini*

*3.2. Təhsil hüquqlarının həyata keçirilməsində bərabər imkanların təmin edilməsi*

*3.3. Siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və həmkarlar ittifaqlarının fəaliyyətində gender bərabərliyinin təmin edilməsi*

## 3.1. Əmək hüquqlarının həyata keçirilməsində gender bərabərliyinin təmini

Sosial-iqtisadi sahədə gender fərqlərinin aradan qaldırılması ümumi inkişaf üçün vacib amildir. Azərbaycanda qadınların iqtisadi təşəbbüskarlığının artması, onların kiçik və orta sahibkarlıqda geniş təmsilçiliyi sosial-iqtisadi inkişafın, o cümlədən, məşğulluğun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Qadınların əmək bazarında kişilərlə bərabərhüquqlu iştirakına imkan yaradılması onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunması ilə nəticələnir. Əsas məqsəd qadınlarda özünəinam hissini artırmaq, həm öz icmasına, həm də cəmiyyətə töhfə verə bilməsinə şərait yaratmaqdır.

Son illər Azərbaycanda da məşğulluq sahəsində gender fərqlərinin aradan qaldırılması üzrə hüquqi mühitin yaradılmasına yönəlik bir sıra addımlar atılıb. Məsələn, “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, dövlət cinsindən asılı olmayaraq eyni işlə məşğul olan işçilərə eyni iş şəraitini yaratmağa, qadın və kişilərin sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün bərabər imkanların yaradılmasına təminat verir. 2007-ci ildə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə edilən dəyişikliyə əsasən, cinsindən asılı olmayaraq eyni işlə məşğul olan işçilərə eyni iş şəraiti yaradılmalı, eyni pozuntuya görə işçilərə fərqli intizam tənbehi tədbiri tətbiq olunmamalıdır.

Hüquqi təminatlara baxmayaraq rəsmi statistik məlumatların analizi göstərir ki, hazırda Azərbaycanda əmək bazarında hələ də gender fərqləri mövcuddur.

Azərbaycanın yüksək potensiallı insan kapitalına əsaslanan inkişaf modelinə keçməsi (2016-2020-ci illər üçün milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində göstərildiyi kimi) üçün özəl sektor iqtisadiyyatında qadınların mövqeyi gücləndirilməlidir. Bu, qlobal tendensiyanı əks etdirir. Belə ki, McKinsey Global İnstitutunun araşdırmalarına əsasən, qadınların iqtisadi sektorda kişilərlə bərabər iştirakı 2025-ci ilədək qlobal ÜDM-ə 28 trilyon dollara qədər (və ya 26%) əlavə gəlir gətirə bilər.

Ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon nəfərdən çoxdur. Onun 48,7%-i və ya 2,5 milyonu qadın, 51,3% və ya 2,6 milyon nəfəri kişilərdir. İqtisadi fəal qadınların 51%-i şəhərlərdə, 49%-i kəndlərdə yaşayırlar.

İqtisadi fəallıq səviyyəsinin ən yüksək olduğu yaş intervalı 25-55 yaş dövrüdür və həmin yaş qrupları üzrə iqtisadi fəallıq səviyyəsi 76-90% arasında olub. Yuxarı yaş qruplarında (55 yaşdan sonra) qadınların erkən pensiya hüququndan istifadə etməsi, əmək bazarında zəif rəqabət imkanlarına görə iş tapa bilmək ümidlərini itirməsi və iqtisadi qeyri-fəal qrupuna keçməyə məcbur qalması onların iqtisadi fəallıq səviyyəsinin kəskin azalmasına səbəb olur. 55-59 yaş qrupu üzrə qadınlar arasında iqtisadi fəallıq əmsalı 55% təşkil edib.

İqtisadi qeyri-fəal əhalinin sayı isə 2.1 milyon nəfərdən çoxdur. Onun 1,4 milyon nəfəri və ya 65,8%-i qadın, 733 min nəfəri və ya 34,2%-i kişilərdir. Dövlət Statistika Komitəsinin və beynəlxalq təşkilatların metodologiyasına əsasən, iqtisadi fəal əhali məşğul və işsiz əhalinin ümumi sayını əhatə edir. İqtisadi qeyri-fəal əhaliyə isə məşğul olmayan, iş axtarmayan və işə başlamağa hazır olmayan 15 və yuxarı yaşda olan şəxslər daxildir. Aparılan uçotdan görünür ki, əmək bazarında iştirak edən qadınların sayı kişilərlə müqayisədə azdır.

Dövlət Statistika Komitəsinin əhalinin gündəlik vaxt sərfi ilə bağlı keçirdiyi sorğudan məlum olur ki, qadınlar vaxtının çox az hissəsini gəlir gətirən sahəyə və təhsilini artırmağa yönəldə bilir. Kişilər isə əksinə, işlədiyi saatın maddi olaraq qarşılığını ala bilir. Eyni zamanda iqtisadi fəaliyyət növləri üzrə qadınların orta aylıq əmək haqqı 335 manat, kişilərin 663 manat olmaqla, görülən işin müqabilində əldə olunan qazanclarda da fərq özünü göstərir.

2,6 milyon iqtisadi-fəal qadın arasında işsizlik 6%-dir. Qeyd etmək lazımdır ki, kişilər arasında işsizlik 4,1% təşkil edir. İşsiz əhali arasında qadınların payı yüksək olsa da, işsizlik statusu alan kişilərin sayı çoxdur. Habelə işsizliyə görə müavinət alanların sayında da kişilər üstünlüyə malikdir. Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da iqtisadi iştirak və imkanlar baxımından gender fərqinin aradan qaldırılması istiqamətində tərəqqini ləngidən bir sıra struktur problemlərinin olduğu müşahidə edilir.

*Azərbaycanın əmək bazarında üfüqi və şaquli seqreqasiya davam etməkdədir. Qadınlar daha çox az ödənişli və qeyri-rəsmi işlərdə çalışır ki, bu da kişi və qadın əmək haqlarında mühüm fərqin mövcudluğuna səbəb olur.*

*Cədvəl 4.*

**İşsiz əhalinin yaş qrupları və cins üzrə bölgüsü (2019-cu il üzrə )**

(Yekuna və cins bölgüsünə görə, faizlə; min nəfər)

| Yaş qrupları | Yekuna görə faizlə | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| 15–19 | 4,9 | 7,2 | 48,0 | 52,0 |
| 20–24 | 23,1 | 26,2 | 54,2 | 45,8 |
| 25–29 | 17,7 | 16,9 | 58,6 | 41,4 |
| 30–34 | 13,0 | 9,6 | 64,6 | 35,4 |
| 35–39 | 9,1 | 9,4 | 56,5 | 43,5 |
| 40–44 | 7,5 | 9,4 | 51,7 | 48,3 |
| 45–49 | 9,0 | 7,6 | 61,3 | 38,7 |
| 50–54 | 9,5 | 7,3 | 63,7 | 36,3 |
| 55–59 | 6,2 | 4,2 | 66,4 | 33,6 |
| 60–64 | - | 2,2 | - | 100,0 |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 57,4 | 42,6 |
| min nəfər | 144,3 | 107,3 | x | x |

Məşğul qadınların təxminən 82%-i iqtisadiyyatın 5 sahəsində çalışır. Öz növbəsində, bütün məşğul qadınların 42.1%-i kənd təsərrüfatında, 18.2%-i ticarət sektorunda, 11.7%-i təhsildə, 6.1%-i səhiyyə və sosial xidmətlərdə, 3.5%-i isə emal sənayesində işləyir. Statistikanın mövcud təsnifatına görə 19 iqtisadi fəaliyyət sferası var və həmin fəaliyyət sektorlarından 8-də qadınlar, 11-də isə kişilər üstün xüsusi çəkiyə malikdirlər.

Qadınların sayı kişilərdən üç fəaliyyət növündə - səhiyyə və sosial xidmətlərin göstərilməsində 54,8%, təhsildə 47,6% və istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyətdə 23,8% çox olmuşdur.

Statistik məlumatların analizi göstərir ki, məşğul qadınların təxminən 82%-nin cəmləşdiyi 5 sektorda iqtisadiyyat üzrə ümumi daxili məhsulun cəmi 27%-i yaranıb. Qadınların 18%-nin məşğul olduğu digər sektorlarda isə iqtisadiyyat üzrə ÜDM-nin yerdə qalan 73%-i formalaşıb. Bu fakt onu göstərir ki, iqtisadi fəal qadınların daha böyük hissəsinin aşağı əlavə dəyərə malik sektorlarda konsentrasiyası onların əmək gəlirləri ilə daha yüksək əlavə dəyərə malik sektorlarda çalışan kişilərin məşğulluqdan gəlirləri arasında fərqin böyüməsinə səbəb olur. Əslində bu vəziyyətin yaranmasının müəyyən qədər obyektiv səbəbləri də var. Belə ki, bir qayda olaraq qadınlar peşə-ixtisas seçimində gələcəkdə yüksək əmək haqqı vəd edən texniki, texnoloji inkişafa və menecmentə bağlı istiqamətlərə deyil, daha çox humanitar istiqamətlərə üstünlük verirlər.

Qadınların məşğulluğu ilə bağlı əsas problemlərdən biri onların ümumi fəaliyyətində qeyri-formal məşğulluğun həddən artıq yüksək paya malik olmasıdır. İqtisadi qeyri-fəal əhali arasında qadınların 618.9 min nəfəri və ya 43.8%-i “evdarlıq” statusu ilə (ev işlərini yerinə yetirən, uşaqlara və digər ailə üzvlərinə qulluq edən) qeydiyyata düşüb. Lakin bu o demək deyil ki, həmin qadınlar ailə büdcələrinin təşkilində yalnız ev işləri və uşağa qulluqla, yəni, haqqı ödənilməyən əməklə məşğuldur. Aparılan müşahidələrdən aydın olur ki, “evdar” qadınların bir hissəsi müxtəlif sahələrdə qeyri-rəsmi formada çalışır. Deməli, xeyli sayda qadın var ki, işlədikləri halda, vergi və sosial sığorta ödənişlərindən kənarda qalır.  Nəticədə, dövlətin onlara qanunla yaratdığı sosial müdafiədən  yararlana bilmir.

Məşğul qadınların 70%-i (kişilərin 65%-i) orta və ibtidai təhsilli, 16.5%-i (kişilərin 15%-i) orta ixtisas və peşə təhsillidir. Rəqəmlərdən göründüyü kimi, əmək qabiliyyətli qadınların hər 10 nəfərindən 6-sı əmək bazarına ixtisassız, orta və ya ibtidai təhsil səviyyəsi ilə daxil olur. Bu baxımdan qadınların peşə-ixtisas strukturunun təkmilləşdirilməsi, qadınların daha yüksək ixtisasla, bilik və bacarıqla əmək bazarına daxil olması hökumətin gender strategiyasının əsas hədəflərindən biri olmalıdır.

*Eyni zamanda qadınların peşə-ixtisas strukturu ilə bağlı statistikanın təkmilləşdirilməsi çox vacibdir. Hazırda qadınların iqtisadiyyatın sahələri üzrə sayı açıqlanasa da, peşələr və ixtisaslar üzrə sayı barədə nə bütövlükdə ölkə, nə ayrı-ayrı rayonlar üzrə heç bir məlumat açıqlanmır.*

Qadınlar ailəyə və uşaqlara qayğıya daha çox üstünlük verirlər. Bunun əsas səbəblərindən biri məktəbəqədər təhsil müəssisələrinin çatışmazlığıdır. 1-5 yaşlı uşaqların cəmi 28,5%-i uşaq bağçası ilə əhatə olunub. Doğrudur, bu göstərici əvvəlki illərlə müqayisədə cüzi də olsa artmışdır. Lakin uşaq bağçalarının, eləcə də günərzi qayğı mərkəzlərinin az olması, bəzi rayon, qəsəbə və kəndlərdə heç olmaması qadınları işləmək imkanlarından məhrum  edir.

“Gələcəyə Baxış-2020 İnkişaf Konsepsiyası”nın 7.4-cü bəndində göstərilir ki, qadınlar və kişilər üçün əmək bazarında bərabər imkanların yaradılması, qadınların işdə irəli çəkilmək, rəhbər vəzifə tutmaq imkanlarının daha da genişləndirilməsi təşkil edəcəkdir.  Ana və uşaqların sosial müdafiəsi və mühafizəsinin gücləndirilməsi, Beynəlxalq Əmək Təşkilatının ratifikasiya olunmuş “Ailə öhdəlikləri olan işçilər haqqında Konvensiya”sına uyğun olaraq, işləyən valideynlər üçün uşağa baxmanın asanlaşdırılması, uşaq bağçalarının sayının artırılması, həmçinin ailə planlaşdırma xidmətlərinin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur.

### *Azərbaycanda əmək bazarında gender fərqləri:*

- *qadınların iqtisadi fəallıq (nəzərə alsaq ki, iqtisadi fəal şəxslər əmək fəaliyyəti ilə məşğul olanlardan və işsizlərdən ibarətdir) səviyyəsi aşağıdır.*
- *qadınlar arasında iqtisadi fəallıq səviyyəsinin ən aşağı yaş intervalları 15-25 və 55-59 yaşdır, iqtisadi fəal qadınların çoxu şəhər yerlərində yaşayır.*
- *işsiz əhali arasında qadınların payı yüksək olsa da, işsizlik statusu alan kişilərin sayı çoxdur.*
- *qadınlar vaxtının çox az hissəsini gəlir gətirən sahəyə və təhsilini artırmağa yönəldə bilir.*
- *qadınların və kişilərin orta aylıq əmək haqqında fərq vardır (qadınlarda 335 manat, kişilərdə 663 manat), qadınlar daha çox az ödənişli və qeyri-rəsmi işlərdə çalışır*
- *qadınlar peşə-ixtisas seçimində gələcəkdə yüksək əmək haqqı vəd edən texniki, texnoloji inkişafa və menecmentə bağlı istiqamətləri deyil, daha çox humanitar istiqamətlərə üstünlük verirlər.*
- *qadınların ümumi fəaliyyətində qeyri-formal (əmək müqaviləsi bağlamadan) məşğulluğun səviyyəsi yüksəkdir.*
- *məşğul qadınlar arasında orta ixtisas və peşə və ali təhsillilərin səviyyəsi kişilərdən aşağıdır.*

### *Əmək bazarında gender fərqlərinin aradan qaldırılması və qadın məşğulluğunun dəstəklənməsi istiqamətində həyata keçirilən tədbirlər;*

- *Ölkə rəhbəri tərəfindən müxtəlif illərdə "Gələcəyə Baxış-2020 İnkişaf Konsepsiyası", "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri", 2019-2030-cu illər üzrə Məşğulluq Strategiyası və onun həyata keçirilməsi üzrə Tədbirlər Planı təsdiq edilmişdir ki, bu sənədlərdə qadın məşğulluğunun artırılması, qadınlar arasında sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, kənd yerlərində qadınların peşə hazırlığının gücləndirilməsi, startapların genişləndirilməsi, uşaq bağçalarının sayının artırılması üzrə tədbirlər nəzərdə tutulmuşdur.*
- *Ölkənin əmək bazarında baş vermiş müsbət tendensiyalar nəticəsində iqtisadiyyat, idarəetmə, texniki və texnologiya ixtisas qrupları üzrə təhsil alan qızların sayının ilbə-il artdığı müşahidə olunur ki, bu da öz növbəsində düz mütənasib olaraq məşğulluğun müvafiq sahələrində qadınların sayının artmasına səbəb olmuşdur.*
- *2017-ci ilin oktyabr ayında qadın sahibkarlar, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, İqtisadiyyat Nazirliyi və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası Azərbaycan Qadın Sahibkarlar Assosiasiyasını yaratdı. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Dəstək Milli Fondu qadınları biznesin inkişafı üçün aşağı faizli dövlət kreditləri almaq hüququna malik həssas qruplardan biri kimi siyahılandırır ("gənclər" və "qaçqınlar" ilə yanaşı). İqtisadiyyat Nazirliyinin tabeliyində olan Sahibkarlığın İnkişafı Fondu tərəfindən son 16 ildə 4347-dən çox qadın sahibkara 79,1 milyon manat kredit verilmiş, o cümlədən, qadın sahibkarlara verilmiş güzəştli kreditlər hesabına 6797 yeni iş yeri açılmışdır. Göstərilən səylərə baxmayaraq, aşağı faizli dövlət kreditləri alan qadın sahibkarların payı kişilərlə müqayisədə daha az olub.*
- *2020-ci il yanvarın 1-inə olan məlumata görə qeydiyyatda olan qadın sahibkarların sayı 198 305-dir. 2012-ci ildə bu rəqəm 73 469 olub. Son yeddi ildə qadın sahibkarların sayı üç dəfəyə qədər artıb.*

*Diaqram 1.*

***Son 7 ildə qadın sahibkarların sayı 3 dəfəyə qədər artıb***




Əgər 2012-ci ildə qadın sahibkarlar 17% təşkil edirdisə, 2020-ci ildə bu rəqəm 21,7%-ə çatmışdır.

- *Dövlət Komitəsi, BMT-nin İnkişaf Proqramı və Əhali Fondu tərəfindən "Özəl sektorda kişilər və qadınlar: imkan və çətinliklər" mövzusunda təhlil aparılmışdır.*
- *Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi xarici ekspertlərin iştirakı ilə sahibkarların maarifləndirilməsi, onların bilik və bacarıqlarının artırılması, peşə-hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədi ilə Bakı şəhərində, eyni zamanda regionlarda təlimlər, seminarlar, dəyirmi masalar, konfranslar, sərgilər və digər maarifləndirici tədbirlər keçirmişdir. Bu tədbirlərdə iştirakçıların 30%-ə qədərini qadınlar təşkil etmişdir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yanında 15 sahibkarlar assosiasiyası və qeyri-hökumət təşkilatlarından ibarət İctimai Şurada həmçinin Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası da təmsil olunur. Assosiasiya ilə əməkdaşlıq çərçivəsində qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması, onlar arasında sahibkarlığın təşviqi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan və Almaniya Hökuməti tərəfindən birgə həyata keçirilən, Azərbaycan tərəfindən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin əlaqələndiricisi olduğu "Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı" çərçivəsində biznesin idarə edilməsi üzrə Almaniyada ixtisasartırma kursu keçmiş 422 nəfər sahibkar və menecerin 88 nəfərini qadınlar təşkil etmişdir.*
- *Dövlət Komitəsi Azərbaycan Sahibkar Qadınlar Assosiasiyası ilə birgə cəzaçəkmə müəssisələrində məhkum qadınların cəmiyyətə inteqrasiyası və onların məşğulluğunun təmin edilməsi üçün bir sıra layihələr həyata keçirmişdir.*
- *Dövlət Komitəsi Azərbaycan Mikromaliyyə Assosiasiyası ilə birgə "Azərbaycan regionlarında qadın mütəxəssislərin hazırlanması və qadın sahibkarların inkişafı" layihəsi çərçivəsində "Maliyyə savadlılığı" və "Biznesinə başla və onu inkişaf etdir" adlı təlimlər həyata keçirmişdir. "Maliyyə savadlılığı" üzrə təlimlərin əsas məqsədi maliyyə savadlılığının əsasları barədə zəruri biliklərin verilməsi, "Biznesinə başla və onu inkişaf etdir" təliminin əsas məqsədi kiçik və orta sahibkarlıqla məşğul olan və ya məşğul olmaq istəyən qadınlara biznes ideyasının yaradılmasında və biznes planın hazırlanmasında dəstək olmaqdır.*
- *Qadın və qızların özəl sektorda iqtisadi və məşğulluq imkanlarından bəhrələnməsinin ümumi təhlili, o cümlədən müsbət və mənfi amillərin müəyyən edilməsi məqsədilə BMT İnkişaf Proqramı, BMT Əhali Fondu və Komitənin birgə həyata keçirdiyi layihə çərçivəsində Quba, Saatlı, Qəbələ rayonlarında və Şəki şəhərində seçilmiş fokus qruplarla "Azərbaycanda qadınların iqtisadiyyat sahəsində iştirakında maneələr" mövzusunda sorğu keçirilmişdir. Sorğu*

*Quba, Şəki, Qəbələ, Saatlı rayon icra başçılarının müavinləri, həmin rayonların işsiz kişilər, işsiz qadınlarından ibarət fokus qrupları və özəl sektordan olan müəssisələrin direktorları ilə aparılmışdır. Rayonlarda yaşayan, işsiz qadınların özəl sektorda müvafiq işlərlə təmin olunmasını və şəxsi bizneslərini yaratmalarını asanlaşdırmaq üçün özəl sektorda fəaliyyət göstərən şirkətlərə kömək məqsədilə keçirilən sorğuda respondentlər qadınların iş axtararkən qarşılaşdıqları problemlər, çıxış yolları, mövcud perspektivlər, qadınların və kişilərin əmək hüquqlarının bərabərliyi barədə suallara cavab vermişlər.*

- *Dövlət Komitəsi, İqtisadiyyat Nazirliyi, Sahibkarlar (İşəgötürənlər) Milli Konfederasiyası tərəfindən "Qadın sahibkarlığının inkişafı: problemlər və perspektivlər" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Konfansın keçirilməsində məqsəd qadınların sahibkarlıq fəaliyyətini artırmaq, onların hüquqlarının qorunması və layiqli əməyin təmin olunması, müasir dövrün və əmək bazarının tələblərindən irəli gələn istiqamətlər üzrə maarifləndirici layihələrin keçirilməsi sahəsində əməkdaşlıq etmək, perspektivlərin müəyyən edilməsidir.*

- *Dövlət Komitəsi 2018-ci ildə İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasındakı Səfirliyi, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Əhali Fondu ilə birgə "Azərbaycanda özəl sektorda qadınlar: imkanlar və çətinliklər" adlı Gender Qiymətləndirilməsi hesabatının təqdimatını keçirmişdir. Gender vəziyyətinin qiymətləndirilməsinə dair aparılan tədqiqatın başlıca məqsədi qadınların özəl sektor iqtisadiyyatında iştirakına təsir edən amilləri müəyyən etmək, o cümlədən qadınların iqtisadi sahədə səlahiyyətlərinin genişləndirilməsi istiqamətində fəaliyyət göstərən hökumət qurumları, özəl sektor və vətəndaş cəmiyyəti təşkilatlarının səylərinə töhfə vermək olub. Qiymətləndirmənin əsas vəzifələri qadınların iş imkanlarından yararlanması, layiqli iş yerləri ilə təmin edilməsi və özəl sektorda uğurlu karyera qurmasının qarşısını alan gender əsaslı amilləri müəyyən edib təhlillər aparmaqdan ibarət olub. Qiymətləndirmə zamanı eyni zamanda kişilərin özəl sektor iqtisadiyyatında iştirakına təsir edən gender əsaslı amillər təhlil edilib.*

- *21 iyun 2019-cu il tarixində qadın sahibkarlığının inkişafına həsr olunmuş "Qadın sahibkarlığının inkişafı: təcrübə, imkanlar və nailiyyətlər" adlı Beynəlxalq Forum keçirilmişdir. Beynəlxalq Forum 3 sessiyada davam etdirilmişdir. Sessiya 1: "Qadın sahibkarlığı Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün ən əhəmiyyətli amil kimi", Sessiya 2: "İnformasiya Komunikasiya Texnologiyaları vasitəsi ilə Qadın sahibkarlığının dəstəklənməsi və şəbəkələşmə", Sessiya 3: Kənd ərazilərində sahibkalığın inkişafı üçün şəraitin yaradılması mövzuları olmuşdur.*

- *"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli Sərəncamı ilə əhalinin özünüməşğulluğuna kömək göstərilməsi məqsədilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 6,0 milyon manat vəsait ayrılmışdır. Qeyd olunan Sərəncamın icrası olaraq 76 rayon üzrə 1767 nəfər işsiz vətəndaş təlim prosesinə cəlb olunmuşdur. Layihənin icrası olaraq, müdafiə prosesində uğur qazanmış 1281 nəfər iştirakçıdan 322 nəfəri qadındır.*

## Kənd təsərrüfatında qadınların iştirakı

Qlobal çağrışlardan biri də kənd yerlərində yaşayan qadınların iqtisadi sahədə səlahiyyətlərinin genişləndirilməsi və sosial həyatda iştirakının təmin edilməsidir.

Ölkəmizdə əhalinin ¼-ni təşkil edən kənd qadınlarının sosial və iqtisadi həyatda iştirakına xüsusi önəm verilir. Qeyd etmək lazımdır ki, bu məsələ ilə bağlı Komitə illərdir ki, müxtəlif layihələr həyata keçirir və müsbət nəticələr əldə olunmuşdur.

- 2011-ci ildən başlayan və uğurla davam edən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə Azərbaycanda "Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı" texniki yardım layihəsini nümunə kimi göstərmək olar. Layihənin məqsədi kənd və rayon yerlərində yaşayan qadınların və gənclərin iqtisadi həyatda fəal iştirakı, sahibkarlıq fəaliyyəti və məşğulluğu üçün iqtisadi imkan və bacarıqlarının artırılmasıdır. Layihə

çərçivəsində Biləsuvar, Salyan, Sabirabad, Neftçala, Masallı, Zaqatala, Qusar, Xaçmaz, Bakı şəhəri Xəzər rayonlarında olmaqla 2011-2019-cu illərdə 9 Qadın Resurs Mərkəzi açılıb. Bu mərkəzlər ölkə boyu kənd və rayon qəsəbələrində yaşayan iqtisadi baxımdan aktiv qadınlar arasında şəbəkənin yaradılmasına dəstək göstərmək məqsədini daşıyır və kənd qadınlarının işgüzar və sosial imkanlarının artırılmasına yönəlir. Qadın Resurs Mərkəzləri məsləhətləşmə, mentorluq, şəbəkələşmə, gücləndirmə, təhlükəsiz məkan, yaxşı ünsiyyət və təbliğat daxil olmaqla, qadınlara geniş xidmət göstərən texniki qurum kimi fəaliyyət göstərir. Ümumilikdə, təlimlərdə və tədbirlərdə iştirak edən qadınların və gənclərin sayı 6000 nəfərdir. 300 nəfər kəndli qadının iştirakı ilə Beynəlxalq Əmək Təşkilatının metodologiyasına əsasən "Öz biznesini başla və inkişaf et" təlimləri təşkil edilmişdir. Təlimlərin nəticəsi olaraq, cəmi 189 sahibkarlıq obyekti açılmış, 70 nəfər əlavə olaraq işlə təmin edilmiş, əmək yarmarkaları təşkil olunmuşdur.

- Kənd yerlərində yaşayan qadınların yeni iş yerləri tapması üçün Xüsusi İş və Əmək Yarmarkaları reallaşdırılır.
- Azərbaycan Kənd Qadınları Assosiasiyası qadınların regional və ölkə səviyyəsində şəbəkələşməsi prosesinə öz mühüm töhfəsini verir. Azərbaycan Kənd Qadınları Assosiasiyası tərəfindən hal-hazırda 14 rayonda 38 Qadın İnkişaf və Müəssisə Qrupunun milli şəbəkəsi yaradılmışdır. 38 qrupda ümumilikdə 462 qadın fəaliyyət göstərir. 32 qrup artıq öz bizneslərini qurmuş, təsərrüfat, təsərrüfatdan kənar və qeyri-təsərrüfat sahələrinə aid olmaqla cəmi 100 kiçik biznesi idarə edir.
- Kənd Təsərrüfatı Nazirliyinin və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının birgə təşkilatçılığı ilə aqrar sahədə qadınların məşğulluğunun, onların informasiya, resurs və bazarlara çıxış imkanlarının artırılması, bununla da onların sosial-iqtisadi rifahının yaxşılaşdırılması məqsədilə Aqrar Fəaliyyətli Azərbaycan Qadınları layihəsi həyata keçirilir. 2019-cu il ərzində kənd təsərrüfatı təyinatlı layihələrin maliyyələşdirilməsi məqsədilə aqrar sektorda çalışan 56 qadın sahibkara müvəkkil kredit təşkilatları vasitəsilə 1414,0 min manat məbləğində güzəştli kredit verilmişdir.

***Əmək bazarında gender fərqlərinin aradan qaldırılması və qadın məşğulluğunun dəstəklənməsi istiqamətində aşağıdakı tədbirlərin görülməsi zəruridir:***

- *qadınların iqtisadi fəallıq səviyyəsinin yüksəldilməsinə, xüsusilə onların peşə-ixtisas hazırlığının artırılmasına yönəlmiş tədbirlərin gücləndirilməsi;*
- *qadın sahibkarlığının stimullaşdırılması üzrə mexanizmlərin işlənilməsi;*
- *məktəbəqədər təhsil infrastrukturunun inkişafı üzrə tədbirlərin davam etdirilməsi;*
- *gender amilini nəzərə almaqla əmək bazarında vəziyyətə dair hərtərəfli statistik informasiyaların və etibarlı məlumat bazasının formalaşdırılması;*
- *müəssisələrdə kollektiv müqavilələrin bağlanması təcrübəsinin genişləndirilməsi və belə müqavilələrdə gender bərabərsizliyinin aradan qaldırılması ilə bağlı öhdəliklərin nəzərdə tutulması;*
- *işəgötürənlərin gender məsələlərinə həssaslığının artırılması istiqamətində həmkarlar ittifaqlarının fəaliyyətinin gücləndirilməsi;*
- *qadınların çevik məşğulluq formaları ilə əhatə edilməsi üçün biznesin stimullaşdırılması. Xüsusilə də ailə qayğısı olan, lakin iqtisadiyyat üçün, çalışdığı müəssisə üçün dəyər yaradan, yüksək iş potensialına malik qadınların ailə və iş öhdəliklərini uzlaşdıra bilməsi üçün onların natamam məşğulluq şəratində çalışmasına şərait yaradılması çox önəmlidir;*

- *qadınların uzadılmış iş rejimlərində çalışmasının qarşısını alan sərt mexanizmlərin tətbiqi. Əmək Müfəttişliyi daimi monitorinq və müşahidələr əsasında artıq iş saatlarında qadınları çalışdıran müəssisələri aşkarlamalı, onların adlarını ictimailəşdirməli və sərt maliyyə sanksiyalarına cəlb etməlidir;*
- *qadın əməyinin tətbiq olunduğu iş yerlərinin və işlərin siyahısının müasir tələblərə uyğunlaşdırılması, beynəlxalq sənədlərdən irəli gələrək qanunvericiliyin bu sahədə təkmilləşdirilməsi;*
- *həyat yoldaşlarının uşaq dünyaya gətirməsi ilə əlaqədar atalara verilən 14 günlük ödənişsiz məzuniyyətin ödənişli əsaslarla olması;*
- *seksual qısnamaya, ayrı-seçkiliyi əks etdirən iş elanlarına görə sanksiyaların müəyyən edilməsi üçün qanunvericiliyə dəyişikliklərin edilməsi;*
- *qadınların texniki-texnoloji, iqtisadiyyat, biznes və menecmentlə bağlı ixtisasları seçməyə həvəsləndirilməsi. Bunun üçün orta məktəblərin 7-8-ci siniflərindən başlayaraq peşəyönümü ilə bağlı tədris proqramlarının tətbiqi yardımçı ola bilər.*

## ◆◆◆ 3.2 Təhsil hüquqlarının həyata keçirilməsində bərabər imkanların təmin edilməsi

Qanunun 13-cü maddəsinə görə dövlət kişi və qadınların təhsil hüququnun həyata keçirilməsi üçün bərabər imkanların yaradılmasını təmin edir. Bu o deməkdir ki, mülkiyyət növündən asılı olmayaraq, bütün təhsil müəssisələrinə qəbulda, tələbələrin təqaüdlə təmin edilməsində, tədris planının seçilməsində və biliyin qiymətləndirilməsində bərabər imkanlar yaradılmalıdır. Qanunda həmçinin dərsliklərin gender bərabərliyi prinsipinə əsaslanması ilə bağlı tələb vardır.

Dayanıqlı İnkişaf Məqsədlərinin təhsillə bağlı olan 4-cü məqsədində 2030-cu ilədək bütün qızların və oğlanların, qadınların və kişilərin əlçatan və keyfiyyətli təhsil almalarını təmin etmək hədəfə alınıb.

Tədqiqatçıların fikrincə təhsil sahəsində gender bərabərsizliyinin aradan qaldırılması dünyada yoxsulluğun azaldılmasına imkan yaradacaq əsas faktorlardan biridir. Təhsildəki bərabərsizliyin aradan qaldırılması cəmiyyətdə bir çox problemlərin həllinə şərait yaradır. Azərbaycanda ölkə rəhbərliyi səviyyəsində bu məsələlərə xüsusi diqqət yetirilir.

Qızların təhsil hüququnun həyata keçirilməsinə bir çox maneələr olur, bunlar əsasən yoxsulluq, erkən yaşda evlilik, gender əsaslı zorakılıq (məhz qız olduğu üçün) və əsasən də cəmiyyətdə qadınların, qızların statusu ilə bağlı köhnəlmiş adət-ənənələr, stereotiplərdir. Nəticədə dünyada məktəbə getməyən uşaqların ən çoxunu, yəni üçdən ikisini (66,3%) qızlar  təşkil edir.

Azərbaycanda qadınların təhsil göstəriciləri yüksəkdir. Belə ki son əhalinin siyahıya alınması göstəricilərinə əsasən ölkədə 20-54 yaş arasında olan qadınların 76,8%-i tam orta təhsilə, 11,7%-i orta ixtisas təhsilinə, 12,5%-i ali təhsilə, 6,9%-i ümumi orta təhsilə, 1%-i isə ibtidai təhsilə malikdir.

15 yaşdan yuxarı olan qadınlar arasında təhsil göstəricisi 99,7%-dir.

2019-cu ildə 9-cu və 11-ci siniflər üzrə buraxılış imtahanlarında iştirak edən şagirdlərin ümumi sayında oğlanlar qismən üstünlük təşkil edir. Belə ki, 9-cu siniflər üzrə buraxılış imtahanında iştirak edən şagirdlərin 54,11%-ni (60 030 nəfər) oğlanlar, 45,89%-ni (50 908 nəfər) qızlar təşkil edib.

11-ci siniflər üzrə buraxılış imtahanında da göstəricilər demək olar ki, oxşardır və imtahanda iştirak edən şagirdlərin 54,91%-ni (43 704 nəfər) oğlanlar, 45,09%-ni (35 892 nəfər) qızlar təşkil edib.

Lakin ayrı-ayrı bölgələr üzrə bu nisbət çox fərqlidir: cənub rayonlarında (Lənkəran, Astara, Lerik, Yardımlı, Cəlilabad və Masallı rayonları) 9-cu sinif şagirdlərinin 45,84%-ni qızlar təşkil edibsə, 11-ci sinif şagirdləri arasında bu göstərici 40,68%-ə bərabər olub. 11-ci sinifdə şagirdlərin sayında qızların payı kəskin şəkildə azalıb. Eləcə də Aran və Dağlıq Şirvan bölgələrində də oxşar statistika mövcuddur.

Ali təhsil müəssisələrinə qəbul olmuş oğlan və qızların dinamikası üzrə göstəricilərə əsasən demək olar ki, qızlar üstünlük təşkil edir:

*Diaqram 2.*




Qeyd etmək lazımdır ki, ölkədə gedən sosial-iqtisadi dəyişikliklər qadınların texniki və iqtisadi sahələrə daxil olmasında ciddi irəliləyişlə nəticələndi. Eyni zamanda qızların ixtisas, peşə seçiminə münasibət də dəyişmişdir. Hazırda iqtisadiyyat, idarəetmə, texniki və texnologiya ixtisas qrupları üzrə təhsil alan qızların sayının ilbəil artdığı müşahidə olunur.

Dövlət və qeyri-dövlət ali təhsil müəssisələrinin tələbələrinin tərkibində “iqtisadiyyat və idarəetmə” ixtisas qrupunda qızların sayı son 8 ildə 8.5 dəfə, “texniki və texnoloji” ixtisaslar qrupunda isə 6.6 dəfə artıb.

Məşğulluqda, iqtisadiyyat növləri üzrə 2005-ci ildə 4328 qadın maliyyə və sığorta fəaliyyəti ilə məşğul olurdusa, 2016-ci ildə onların sayı 8278 nəfərə çatmışdır. Və ya 2005-ci ildə peşə, elmi və texniki fəaliyyəti ilə 14 811 qadın məşğul olurdusa, 2019-cu ildə 25 032 olmuşdur.

Ölkədə texniki və texnoloji ixtisaslar qrupu üzrə bakalavr səviyyəsində təhsil alan qızların sayı 9 minə yaxınlaşır. Bu ixtisas üzrə magistratura sahəsində təhsilini davam etdirən qızların sayı 2 minə çatır. 2019/2020-ci tədris ili üzrə isə artaraq 3000 minə yaxınlaşmışdır.

Azərbaycan Hökumətinin təhsil siyasətində qadınların təhsilin bütün pillə və səviyyələrində fəal iştirakı və karyera inkişafı əsas prioritetlərdən biridir. Lakin təhsil sahəsində çalışan işçilərin 80%-

dən çoxunu qadınlar təşkil etdiyi halda təhsilin idarə olunmasında, o cümlədən rəhbər vəzifələrdə bu yüksək göstərici saxlanılmır. Aşağıdakı cədvəllərdən göründüyü kimi təhsil sahəsində rəhbər vəzifələrdə kişilər üstünlük təşkil edir və bu,əsasən bütün səviyyələrdə özünü göstərir.

*Cədvəl 5.*

**Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən ali təhsil müəssisələri, orta ixtisas təhsil müəssisələri və ilk-peşə ixtisas təhsili müəssisələrinin işçi heyəti haqqında məlumat**

| Sıra № | Təhsil pilləsi | Cəmi işçilərin say | Onlardan qadınların sayı | Rəhbər vəzifədə çalışan-ların sayı | Onlardan qadınlar | Müəllim-lərin sayı | Onlar-dan qadınlar |
|---|---|---|---|---|---|---|---|
| 1. | Ali təhsil müəssisələri | 18484 | 11414 | 1338 | 467 | 9727 | 5119 |
| 2. | Orta ixtisas təhsil müəssisələri | 6459 | 4718 | 322 | 173 | 4391 | 3366 |
| 3. | İlk-peşə ixtisas təhsili müəssisələri | 4861 | 2828 | 1832 | 876 | 1445 | 1050 |

*Cədvəl 6.*

**2019/2020-ci tədris ilinin əvvəlinə əyani ümumi təhsil müəssisələrində rəhbər işçilər**
(Cins bölgüsü, faizlə)

| | Cins bölgüsü | |
|---|---|---|
| | **qadınlar** | **kişilər** |
| Direktorlar:<br>ümumi orta təhsil müəssisələrində | 24,8 | 75,2 |
| tam orta təhsil müəssisələrində | 38,1 | 61,9 |
| Direktor müavinləri:<br>ümumi orta təhsil müəssisələrində | 40,0 | 60,0 |
| tam orta təhsil müəssisələrində | 57,0 | 43,0 |
| Direktorlar və onların müavinlərinin<br>sayı - cəmi, | | |
| **faizlə** | **48,8** | **51,2** |

2019-cu ildə əyani tam orta təhsil müəssisələrində direktor vəzifəsində çalışan qadınların xüsusi çəkisi ötən tədris ili ilə müqayisədə 36,5 faizdən 38,1 faizə qədər artmışdır. Ümumilikdə əyani ümumi təhsil müəssisələrində qadınların ümumi sayında direktorların və onların müavinlərinin sayı 2,2 faiz artmışdır.

*Diaqram 3.*

**2019/2020-ci tədris ilinin əvvəlinə dövlət ali təhsil müəssisələrində professor-müəllim heyəti**
(Cins bölgüsü, faizlə)




Ümumi təhsil müəssislərindən fərqli olaraq ali təhsil müəssisələrində rəhbər vəzifələrdə qadınlarla kişilərin say fərqi daha çoxdur. Professor-müəllim heyətində qadınlar qismən üstünlük təşkil etsə də rektor, prorektor (filial direktorları), fakültə dekanları, kafedra müdirləri əsasən kişilərdir. Müəllim heyətində isə gender fərqi özünü qadınların say çoxluğunda göstərir.

**Təhsildə bərabər imkanların təmin edilməsinə yönəlmiş tədbirlər:**

- *Qızların təhsildən yayınma hallarının minimuma endirilməsi məqsədilə ümumitəhsil müəssisələrində ilboyu qabaqlayıcı tədbirlər (ailələrlə iş, sinif rəhbərlərinin fəaliyyətinin gücləndirilməsi, şagirdlərin keyfiyyətli təhsil almasına şəraitin yaradılması, şagirdlərin sinifdənxaric və məktəbdənkənar tədbirlərə cəlb edilməsi, şagirdlərin peşə seçimi işinin yerli şəraitə uyğun aparılması və s.) həyata keçirilmişdir. Hər bir rayonda fəaliyyət göstərən yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar bu işdə yerli təhsili idarəetmə orqanlarına yaxından köməklik göstərirlər. Bununla yanaşı, yerlərdə fəaliyyət göstərən peşə lisey və məktəbləri ilə qarşılıqlı əməkdaşlıq sayəsində ümumi orta təhsili bitirən şagirdlərdən bir qismi təhsili həmin müəssisələrdə davam etdirirlər.*
- *Ölkə üzrə ümumi təhsil sahəsində keçirilən müxtəlif bilik yarışlarında, müsabiqələrdə, olimpiadalarda qızlar daha fəal iştirak edirlər. 2019-cu ildə "Ümummili lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar ümumtəhsil məktəb şagirdləri arasında keçirilən*

*“Ən yaxşı təqdimat” müsabiqəsində 62 qalibdən 53-ü qız, “Ədəbiyyat biliciləri” müsabiqəsində 52 qalibdən 44-ü qız olmuşdur. Fənn müsabiqələrinin ölkə mərhələsinin final turunda 1869 iştirakçı qızdan 48-i qalib, fənn olimpiadasının final turunda 200 iştirakçı qızdan 78-i qalib olmuşdur.*

- *Dövlət Komitəsi “Təkamül və İnteqrasiya” İctimai Birliyi ilə birgə “Regionlarda qadınların texniki-peşə təhsilinin inkişafına dəstək” layihəsini həyata keçirmişdir. Layihənin əsas məqsədi regionlarda qadınların peşə təhsilinin inkişafına kömək etməkdir. Layihə ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun peşə ixtisas kadrlarına yaranan tələbatın ödənilməsi, habelə qadınların müasir peşə təhsili almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli texniki peşə təhsili sisteminin formalaşmasına xidmət etməyi və gənc qızlarda peşə təhsilinə həvəs oyatmaqdan ibarətdir. Layihə Göygöl, Bərdə, Sabirabad rayonlarında həyata keçirilmişdir.*
- *Texniki Universitetdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə birgə “Gənclərin peşə seçiminin gender aspekləri” adlı konfrans keçirilmişdir. Tədbirdə gənclərin peşə seçimində problemlər, məşğulluq, gənclərin idmanda, sosial həyatda inkişafı və digər mövzular üzrə ətraflı müzakirələr keçirilmişdir. Eyni zamanda bu istiqamətdə birgə layihələrin həyata keçirilməsi ilə bağlı təkliflər verilmişdir.*
- *“Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən 139 nəfər valideyn himayəsindən məhrum olmuş tələbə qızın (113 nəfər bakalavr, 26 nəfər isə magistr pilləsində) təhsil haqqı dövlət vəsaiti hesabına ödənilmişdir.*
- Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Qanunun 13.4-cü maddəsində göstərilir ki, “Dərsliklər gender bərabərliyi prinsipinə əsaslanmalıdır”. Məktəblərdə tədris olunan “Həyat bilgisi” üzrə fənn kurikulumlarında şagirdlərə vacib həyati bacarıqların formalaşdırılması ilə bağlı təlim standartlarında gender stereotiplərinin aradan qaldırılması ilə bağlı mövzular öz əksini tapmışdır.

## Elmdə gender bərabərliyinin təmin edilməsi

Qadınlar dünyada innovasiya texnologiyalarının patent sisteminin imkanlarından daha az istifadə edirlər, nəinki kişilər. Ümumdünya Əqli Mülkiyyət Təşkilatının məlumatına görə, 2016-ci ildə patent kooperasiyası haqqında Müqavilə proseduru üzrə təqdim olunmuş beynəlxalq patent ərizələrinin üçdə biri qadınlar tərəfindən yazılır. Statistik məlumatlara görə, dünyada qadın ixtiraçıların sayı 2007-ci ildən etibarən iki dəfə artıb. Əgər bu temp belə davam edərsə, onda bir də 60 ildən sonra, yəni 2076-cu ildən tez olmayaraq patent sisteminin istifadəsi sahəsində gender bərabərliyinə nail olacağıq. Baxmayaraq ki, müəyyən müsbət dinamika mövcuddur, lakin innovasiya prosesində qadınların rolunun artırılması və gender bərabərliyinə nail olmaq üçün daha çox işlər görmək lazımdır. Əgər biz Nobel mükafatı alanların statistikasına nəzər salsaq görərik ki, 1901-ci ildən 2016-cı ilədək 822 kişi, 48 qadın bu mükafata layiq görülüb. 2020-ci ilin göstəricilərinə əsasən isə, 756 kişi və 58 qadın bu mükafatı qazanıb.

YUNESCO-nun hesabatlarına görə, Azərbaycan bütövlükdə tədqiqatçıların arasında qadınların xüsusi çəkisi daha çox olan ölkələr sırasındadır. Azərbaycan qadınları çətin sayılan neftçıxarma, kosmik tədqiqatlar, kibernetika, siyasi elmlər və s. sahələrdə uğurla çalışırlar. Ölkə rəhbərliyinin qayğısı qadınlarımızı elmi biliklərin yayılması sahəsində ardıcıl iş aparmağa, elmin inkişafına yeni töhfələr verməyə ruhlandırır. Yüksək intellektual potensiala malik olan bu qadın alimlərimizin hər biri öz sahəsində novator ideyaları, dəyərli araşdırmaları ilə təkcə Azərbaycan deyil, dünya elmində dərin izlər qoyublar. Və bu gün də onların gözəl davamçıları yetişir.

Ölkəmizdə 8 akademik qadın (60 kişi), 11 müxbir üzv qadın (94 kişi), həmçinin qadınlar arasında 315 elmlər doktoru, 3000-dən çox fəlsəfə doktoru vardır. Çox sevindirici haldır ki, humanitar elmlərlə yanaşı, texniki, tibb, kənd təssərüfatı sahələri üzrə qadın tədqiqatçılarımızın sayı artmaqdadır. 2019-cu ildə Azərbaycanda qadın tədqiqatçıların sayı 8665 çatmışdır. Və onların bir çoxları elmə verdikləri töhfələrə görə dünyada tanınır.

*Diaqram 4.*

**2019-cu il üzrə elmin sahələri üzrə tədqiqatçılar**
(Cins bölgüsü, faizlə)




Ümumən elm sahəsində tədqiqatçı qadınlar (57,3%) kişilərdən (42,7%) daha çox təmsil olunur. Tədqiqatçı qadınların və kişilərin əksəriyyəti təbiət elmləri sahəsində üstünlük təşkil edir. Tədqiqatçı qadınlar humanitar, təbiət, tibb sahəsində, kişilər isə, kənd təsərrüfatı və texnika elmləri sahəsində sayca daha çoxdur.

*Cədvəl 7.*

**2019-cu il üzrə elmin sahələri bölgüsündə elmlər doktoru proqramı üzrə təhsil alanlar**
(Cins bölgüsü, faizlə)

| İxtisas qrupları | Cins bölgüsü | |
|---|---|---|
| | qadınlar | kişilər |
| 1 | 2 | 3 |
| Pedaqogika | 81,8 | 18,2 |
| Kimya | 69,4 | 30,6 |
| Tibb | 19,0 | 81,0 |

| 1 | 2 | 3 |
|---|---|---|
| Biologiya | 62,7 | 37,3 |
| Fizika və riyaziyyat | 48,1 | 51,9 |
| Tarix | 46,7 | 53,3 |
| Memarlıq | - | 100,0 |
| Fəlsəfə | 100,0 | - |
| Siyasi elmlər | 41,2 | 58,8 |
| Filologiya | 73,5 | 26,5 |
| Sənətşünaslıq | 57,9 | 42,1 |
| Texnika | 39,7 | 60,3 |
| İqtisadi | 45,1 | 54,9 |
| Aqrar | 37,3 | 62,7 |
| Hüquq | 36,8 | 63,2 |
| Yer elmləri | 25,0 | 75,0 |
| Digər | 12,3 | 87,7 |
| **Cəmi, faizlə** | **51,6** | **48,4** |

Elmlər doktoru proqramı üzrə təhsil alanların 51,6%-i qadınlar, 48,4%-i kişilərdir. Qadınlar fəlsəfə, pedaqoqika və filologiya sahələrində, kişilər isə memarlıq, tibb və yer elmləri sahələrində üstünlük təşkil edir.

## <u>İnformasiya kommunikasiya texnologiyaları sahəsində gender bərabərliyinin təmin edilməsi</u>

İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) davamlı və dayanıqlı inkişafın təmin edilməsi, intellektual potensialın gücləndirilməsi, biznesin inkişafı, yoxsulluq və işsizliyin azaldılması üçün əlverişli vasitə olaraq qəbul edilir. Beynəlxalq Telekommunikasiya İttifaqının məlumatına görə indiyə qədər dünyanın 160 ölkəsində təxminən 7000-dən çox bu sahədə tədbir təşkil edilib ki, bu tədbirlər də öz növbəsində 240 mindən çox qadın və gənc qızın hüquq və imkanlarının genişləndirilməsinə xidmət etmişdir. Avropa İttifaqının Rəqəmli Gündəliyinin məlumatına görə dünyada informasiya-kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən təxminən 10 milyona yaxın insanın yalnız 30 faizini qadınlar təşkil edir. Onlar İKT sektorunun bütün istiqamətlərində, xüsusilə rəhbər vəzifələrdə çox az təmsil olunurlar. Halbuki İKT sektoru hər il təxminən 120 min yeni iş yeri yaradaraq sürətlə, artan dinamika ilə inkişaf edir.

Dövlətimiz tərəfindən həyata keçirilən innovasiya siyasəti nəticəsində yeni bilik və texnologiyaların istehsalı, yayılması və tətbiq edilməsi üçün lazım olan bütün şərait yaradılır. 2011-ci ildən başlayaraq Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən təsis olunan, hər il aprel ayının dördüncü həftəsinin dördüncü günü bir çox ölkələrdə olduğu kimi ənənəvi olaraq Azərbaycanda da “İKT-də Qızlar Günü” kimi qeyd olunur. “İKT-də Qızlar” Gününün keçirilməsi qızları informasiya-kommunikasiya texnologiyaları sahəsinə cəlb etmək, onların bu sektorda fəaliyyətini stimullaşdırmaq məqsədi daşıyır.

Müasir dövrdə bütün sahələrdə olduğu kimi informasiya texnologiyalarının tətbiqində də gender fərqlərinin öyrənilməsi və gender ekspertizasının həyata keçirilməsi çox aktual məsələdir. Gender fərqləri başlıca olaraq bilik və təcrübə ilə yanaşı həmçinin mədəniyyət və mentalitet amilindən də asılıdır. Eyni zamanda qeyd edilməlidir ki, müasir inkişaf konsepsiyasına uyğun olaraq qadınların bu sahədə təmsilçiliyi artır. Bu fakt ölkəmizdə də öz əksini tapmışdır. Belə ki, Azərbaycanda kompüter istifadə edən qadınların sayı ötən illərlə müqayisədə artaraq 76,8% faiz olub. Ölkə üzrə internetdən istifadə edənlərin ümumi göstəricisi 79,8%-dir. Bu sahədə gender bölgüsünə gəldikdə isə qadınlar 76%, kişilər isə 83,7% təşkil etmişdir. Mobil telefondan istifadə edən qadınların xüsusi çəkisi 70,8%, kişilərin xüsusi çəkisi isə 77,3% olmuşdur.

Beynəlxalq hesabatlara əsasən tələblər və bacarıqlar arasında fərqlər səbəbindən 2020-ci ildə İKT sahəsində 900 min ixtisaslı kadr çatışmazlığı meydana gələ bilər. Bütün dünya ölkələrində olduğu kimi Azərbaycanda da bu məsələlər mühüm əhəmiyyət kəsb edir. Məhz bu baxımdan digər fəaliyyət sahələrində olduğu kimi bu istiqamətdə də məlumatlılıq səviyyəsinin artırılması məqsədilə qadınların və qızların iştirakı ilə davamlı olaraq maarifləndirmə işləri aparılmalı, startaplar, inkubasiya mərkəzləri yaradılmalıdır. Maarifləndirmə işlərinə İKT sahəsində ixtisaslaşmış, təcrübəli, peşəkar qadın mütəxəssislərin cəlb olunması ilə daha uğurlu nəticələrə nail olmaq mümkündür.

***Təhsil sahəsində mövcud gender problemlərinin həlli üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:***

- *təhsil sahəsində gender stereotipləri ilə mübarizə çərçivəsində tədbirlərin gücləndirilməsi;*
- *ümumi təhsil müəssisələrində qızların və oğlanların təhsildən yayınma hallarının qarşısının alınması üçün tədbirlərin görülməsi, monitorinq və tədqiqatların aparılması;*
- *müvafiq olaraq təhsilin bütün pillələrində fənn proqramlarına qadın hüquqları, gender bərabərliyi üzrə mövzuların daxil edilməsi;*
- *təhsildə və karyera seçimində qızları və gənc qadınları qeyri-ənənəvi sahələrə üstünlük verməkdə təşviq etmək;*
- *qadınların rəqabət qabiliyyətlərinin artırılması məqsədilə əmək bazarında prioritet sahələr üzrə peşə hazırlığının təşkili;*
- *məktəbli qızların yüsək texnologiyalar sahəsində karyera imkanlarını təşviq etmək üçün tədbirlərin təşkili;*
- *kişiləri və oğlanları əmək bazarında azlıq təşkil etdikləri təhsil sahəsinə cəlb etmək, bu sahədə kişilərə və oğlanlara təsir göstərən gender stereotiplərini aradan qaldırmaq, stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;*
- *ümumtəhsil müəssisələrində yuxari sinif şagirdləri, müəllim və valideyin kollektivinin iştirakı ilə qadın hüquqları, gender bərabərliyi, məişət zorakılığı, erkən nikahlar mövzusunda maarifləndirici tədbirlərin davam etdirilməsi;*
- *təhsilin bütün pillələrinə aid tədris resursları üzrə gender ekspertizasının keçirilməsi.*

## 3.3. Siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və həmkarlar ittifaqlarının fəaliyyətində gender bərabərliyinin təmin edilməsi (Maddə 16)

**"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 16.1-ci maddəsində göstərilir ki, siyasi partiyalara, qeyri-hökumət təşkilatlarına və həmkarlar ittifaqlarına daxil olmaq kişi və qadınlar üçün eyni şərtlərlə açıq olmalıdır və onlar üçün bərabər imkanlar yaradılmalıdır.**

**Siyasi partiyalar**

Hazırda ölkəmizdə rəsmi dövlət qeydiyyatından keçmiş 61 siyasi partiya fəaliyyət göstərir. Onlardan yalnız 2-nə qadınlar, 59-na isə kişilər rəhbərlik edir. Bu partiyaların seçkili orqanları və rəhbər strukturlarında təmsil olunanların 23%-i qadınlardır. Onlardan 38,1%-ni gənc, 55%-ni ali təhsilli qadınlar təşkil edir.

Ümumilikdə isə bu partiyalarda əhalinin neçə faizinin cəmləşməsi, onun gender tərkibi, eləcə də digər vacib məsələlər haqqında məlumat almaq imkanlarının məhdudluğu səbəbindən real fəaliyyət zamanı gender bərabərliyinin necə qorunması, bərabər iştirakçılıq və təmsilçilik, o cümlədən qadınların siyasi proseslərə qatılma imkanları və onun nəticələri haqqında səhih fikir söyləmək mümkün deyil. Yalnız müşahidələr əsasında bəzi təxminləri və seçki proseslərinin təhlili və faktiki nəticələrinə görə bəzi rəqəmləri qeyd etmək olar.

Altıncı çağırış Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilərdə siyasi partiyalar tərəfindən irəli sürülən qadın namizədlərin ümumi sayı 276 nəfər, seçilənlərin sayı isə 22 nəfər olub. Daha çox YAP – Yeni Azərbaycan Partiyası, ÜMİD – Azərbaycan Ümid Partiyası, Müsavat Partiyasının qadın namizədləri qeydə alınmışdır.

23 dekabr 2019-cu ildə bələdiyyə seçkilərində siyasi partiya tərəfindən irəli sürülən qadın namizədlərin ümumi sayı 12130, seçilən qadınların sayı isə 5848 olub. Daha çox YAP – Yeni Azərbaycan Partiyası, AVP – «Ana Vətən» Partiyası, BQP – Böyük Quruluş Partiyası, ADMP – Azərbaycan Demokratik Maarifçilik Partiyası, BAXCP – Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, DİP – Demokratik İslahatlar Partiyası, ASDP – Azərbaycan Sosial Demokrat Partiyası, ÜMİD – Azərbaycan Ümid Partiyasının qadın namizədləri qeydə alınmışdır.

Dövlət Komitəsi Yeni Azərbaycan Partiyasının Qadınlar Şurası ilə birgə müntəzəm olaraq müxtəlif tədbirlər həyata keçirmişdir.

- *Dövlət Komitəsi Yeni Azərbaycan Partiyası ilə birgə regionlarda qadınların respublikanın ictimai-siyasi, sosial-mədəni həyatında fəallığının və dövlət qadın siyasətinin əsas istiqamətlərindən biri kimi qadınların qərar qəbulu səviyyəsində təmsilçiliyinin artırılması, gender bərabərliyinin təmin edilməsi məqsədilə görüşlər keçirmişdir. "Bələdiyyə və Qadın" adlı buklet çap olunaraq əhaliyə paylanılmışdır.*
- *Dövlət Komitəsi Yeni Azərbaycan Partiyası ilə birgə ənənəvi olaraq hər il Ulu öndər Heydər Əliyevin il dönümünə həsr olunmuş "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır" adlı müsabiqə keçirmişdir.*

- *Dövlət Komitəsi Yeni Azərbaycan Partiyası və Rayon İcra Hakimiyyətləri ilə birgə tam orta məktəblərdə «11 oktyabr Beynəlxalq Qızlar Günü»nə həsr olunmuş tədbirlər həyata keçirmişdir. Tədbirlərdə iştirakçılara qızların təhsildən yayınma halları, reproduktiv sağlamlıq, erkən nikah və onun fəsadları haqqında məlumat verilmiş və mövzu ətrafında fikir mübadiləsi aparılmışdır.*

Nəzərə alsaq ki, ölkədə fəaliyyət göstərən siyasi partiyalarla əməkdaşlığımız istənilən səviyyədə deyil, gələcəkdə ölkənin siyasi sisteminin əsas subyektləri olan siyasi partiyalarla və onların qadın təşkilatları ilə Dövlət Komitəsinin sıx əlaqələrinin qurulması, gender və qadın problemləri, təmsilçilik və iştirakçılığın səviyyəsinin artırılması sahəsində əməkdaşlıq üçün səmərəli mexanizmlərin yaradılması nəzərdə tutulmuşdur.

**Qeyri-Hökumət Təşkilatları**

Azərbaycanda fəaliyyət göstərən 3485 qeyri-hökumət təşkilatı arasında 1804 təşkilatın sədri kişi, 393 təşkilatın sədri isə qadındır. Həmçinin 984 təşkilatın təsisçi heyətinə həm kişilər, həm qadınlar daxildir.

Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının məlumatına əsasən Şuranın SƏLİS proqramında 957 qeyri-hökumət təşkilatı qeydə alınmışdır. Bunlardan 645 (67%) qeyri-hökumət təşkilatının sədri kişi, 312 (33%) qeyri-hökumət təşkilatının sədri isə qadınlar təşkil etmişdir.

Ölkədə qadın hüquqlarının müdafiəsi üzrə 200-dən çox qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2019-cu ildə keçirdiyi qrant müsabiqələri çərçivəsində 513 qeyri-hökumət təşkilatının layihəsi maliyyələşib. Bunlardan 165-nin rəhbəri qadınlar olmuşdur. Həmin layihələr 2019-cu ildə həm ölkə daxilində, həm də ölkə xaricində icra olunmuşdur.

Ümumilikdə, 2019-cu il ərzində icra olunan layihələrdən 49913 nəfər qadın birbaşa faydalanmışdır. Bununla yanaşı qeyd olunmalıdır ki, "Ailə, qadın və uşaqların sosial, fiziki və mənəvi inkişafına dair təşəbbüslər" və "Məişət zorakılığı ilə mübarizə sahəsində təşəbbüslər" mövzuları 2019-cu ildə keçirilmiş qrant müsabiqələrinin əsas istiqamətləri kimi müəyyən olunmuşdur.

*Cədvəl 8.*

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən qadın hüquqlarının müdafiəsi, məişət zorakılığı və gender siyasətinin həyata keçirilməsi istiqamətində maliyyələşən layihələr**

| İllər | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Maliyyələşən layihə sayı | 42 layihə | 22 layihə | 28 layihə | 55 layihə | 34 layihə |
| Ayrılan məbləğ | 378 000 | 207 000 | 185 000 | 381 500 | 229 500 |
| Qadın QHT sədrlərinin sayı | 31 nəfər | 16 nəfər | 16 nəfər | 27 nəfər | 24 nəfər |
| Kişi QHT sədrlərinin sayı | 11 nəfər | 9 nəfər | 12 nəfər | 28 nəfər | 10 nəfər |

## Həmkarlar ittifaqları

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına sahə Həmkarlar İttifaqı Respublika Komitələrinin 2019-cu il üzrə daxil olmuş statistik hesabatların araşdırılması göstərir ki, həmkarlar ittifaqları üzvlərinin sayında kişilər 52%, qadınlar 48%, bütün səviyyəli rəhbər vəzifələrdə çalışanlar arasında isə qadınlar 40% təşkil edirlər (35% - gəncdir). Sədr seçilmiş qadınların sayı 41%-i, onlardan 23%-i ödənişli vəzifədə çalışanlardır. Həmkarlar ittifaqlarının seçkili orqanlarında (İcraiyyə Komitəsi, Rəyasət Heyəti, Həmkarlar ittifaqı komitəsi və s.) qadınların sayı 42%-dir. Həmkarlar ittifaqı üzvlərinin dörddə bir hissəsindən çoxu 29 yaşınadək olan gənclərdir ki, onların da 53%-i gənc qadın və qızlardır.

Hazırda həmkarlar ittifaqı sturukturlarında gender və qadın problemləri ilə məşğul olan 2116 komissiya, onların tərkibində 8569 nəfər qadın və kişi fəaliyyət göstərir. Az saylı təşkilatlarda isə bu işlərə baxan 818 nəfər məsul şəxs təyin olunubdur.

Əmək kollektivlərində "Hüquqşünas məsləhəti" saatları təşkil edilib, dəyirmi masa ətrafında müzakirlər aparılıb, qadın və gender məsələlərinə həsr olunmuş 683 seminar, dəyirmi masa və s. tədbirlər keçirilmişdir. Bu tədbirlərdə 13 minə yaxın həmkarlar ittifaqı üzvü iştirak etmişdir. Əmək və Sosial Münasibətlər Akademiyası nəzdindəki kurslarda 835 nəfər təlim alan kadr və fəalların 240 nəfəri qadınlardır.

Həmkarlar ittifaqlarının üzvü olan 424 nəfər qadın beynəlxalq təşkilatların keçirdiyi 34 tədbirdə iştirak etmişdir. Gender problemlərinə həsr olunmuş və xarici ölkələrdə keçirilmiş (Ruminya, Gürcüstan, Türkiyə, Çexiya, Belçika, ABŞ, Almaniya, Bosniya və Hersoqovina, Mərakeş, Qazaxıstan, Avstriya, Özbəkistan, Rusiya, İsveç, Kipr, Makedoniya, İrlandiya və s) tədbirlərdə həmkarlar ittifaqlarının 39 nəfər nümayəndəsi iştirak etmişdir ki, onlardan 37 nəfəri qadınlardır.

Bir neçə gənc kadr AKTRAV-ın (Beynəlxalq Əmək Təşkilatının Proqramı) həmkarlar ittifaqı sahəsində çalışan 35 yaşadək qadınlar üçün ingilis, fransız və ispan dillərində təşkil etdiyi "Gənc Qadınların liderliyi-əmək sahəsində həmkarlar ittifaqlarının imkanlarının və hüquqlarının genişləndirilməsi üçün açardır" mövzusunda təlim onlayn distant təhsil kursunda iştirak edirlər. Təlim həmkarlar ittifaqları rəhbərliyində əsas rol oynaya biləcək gənc qadınların peşə inkişafına, eyni zamanda qərarqəbuletmə prosesində yardım edir. Həmkarlar ittifaqları idman təşkilatlarında bədən tərbiyəsi və idmanla məşğul olanların 8,4%-i qadınlar və qızlardır. Ötən illər ərzində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsinin qərarı ilə "İlin peşəkar gənci" Fəxri ada layiq görülən 257 gəncdən 94-ü əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş gənc qadınlardır.

Həmkarlar İttifaqları ölkədə işçinin hüquqlarını müdafiə edən bir qurum olaraq tanınır. Həmkarlar İttifaqının olduğu qurumlarda qadınların əmək hüquqları qorunur, onlara iş yerlərində müvafiq şərait yaradılır və digər qaydalara riayət olunur.

Lakin qadınlar öz hüquqlarını müdafiə etmək məqsədilə məhkəmələrə və ya həmkarlar ittifaqları kimi kənar köməkçi mexanizmlərə az etibar edirlər. Aparılan təhlillər zamanı qadın respondentlər Həmkarlar İttifaqları Konfederasiyasına və ya məhkəməyə çox az hallarda müraciət etdiklərini bildirmişdir.

Nəzərə alsaq ki, bu gün özəl sektor sürətlə inkişaf edir və özəl sektorda işləyən qadınların sayı artır, özəl müəssisələrdə Həmkarlar İttifaqının yaranmasına böyük ehtiyac vardır.

# 4. Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində həyata keçirilməsi zəruri olan tədbirlər

Əldə olunan nəticələr göstərir ki, Azərbaycan Respublikası gender bərabərliyinin təmin edilməsi sahəsində iyirmi ildən artıq dövrü əhatə edən müsbət təcrübəyə malikdir. Bu sahədə qanunvericilikdə nəzərdə tutulan dövlət təminatları son illərdə ictimai həyatın bütün sahələrində qadınların kişilərlə bərabər öz hüquq və azadlıqlarını reallaşdırması imkanlarını genişləndirmişdir. Dövlət idarəçiliyində, qərarqəbuletmədə qadınların təmsilçiliyinin artması ictimai həyatın bütün sahələrinə öz müsbət təsirlərini göstərməkdədir. Dövlət orqanlarında, təşkilatlarda gender məsələlərinə məsul şəxslərin müəyyən edilməsi, gender amilinin siyasətlərə daxil edilməsi, vətəndaş cəmiyyətinin bu sahədə fəallaşması xüsusi əhəmiyyət daşıyır.

Ölkəmizin insan hüquqlarının daha səmərəli şəkildə təmin edilməsi sahəsində siyasi iradəsi müasir dövrün yeni çağırışlarına uyğun dəyişikliklərin həyata keçirilməsinə geniş şərait yaradır.

Təqdim olunan illik məlumatın yekunu olaraq bir daha Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində dövlət təminatlarının müasir dövrün tələbləri ilə nə dərəcədə uzlaşdığını, bu sahədə hansı dəyişikliklərin zəruri olduğunu qeyd etmək məqsədəuyğundur.

**Məlumatın hazırlanması prosesində Qanunun müvafiq maddələrinin icra vəziyyətinin öyrənilməsi məqsədi ilə fəaliyyət istiqamətlərinə uyğun olaraq aidiyyəti dövlət orqanlarına (qurumlara) sorğular göndərilmişdir.**

**Dövlət orqanlarından təqdim edilmiş məlumatların təhlili aşağıdakı boşluqları üzə çıxartmışdır:**

- *gender bərabərliyi siyasətinin yalnız qadınların müvafiq dövlət orqanlarında (qurumlarda) kişilərlə müqayisədə təmsilçilik səviyyəsinin artırılması yolu ilə həyata keçirlməsi kimi qəbul edilməsi;*

- *müvafiq sahələrdə həyata keçirilən siyasətlərdə gender amilinin məqsədyönlü şəkildə yetərincə nəzərə alınmadığı;*

- *cəmiyyətdə de-fakto gender bərabərliyinin təmin edilməsi məqsədi ilə CEDAW Konvensiyasının 4-cü və Qanunun 3.2.6-cı maddəsinə əsasən müvəqqəti xüsusi tədbirlərin həyata keçirilməsi ilə bağlı tələb olunan tədbirlərə əhəmiyyət verilmədiyi;*

- *Qanunun bir sıra maddələrinin (əmək fəaliyyətində işəgötürənlərin vəzifələrinə, seksual qısnamaya, cinsi mənsubiyyətə görə ayrıseçkiliyə məruz qalmış şəxslərə zərərin ödənilməsi ilə bağlı maddələr) icra vəziyyətinə dair məlumatların yoxluğu.*

**Dövlət Komitəsi gender bərabərliyinin təmin edilməsi sahəsində mövcud boşluqların aradan qaldırılması və ölkəmizin üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri hesab edir:**

1. *“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun icra mexanizmlərinin təkmilləşdirilməsi;*

2. *BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına dair Konvensiyasından (CEDAW) irəli gələn öhdəliklərin həyata keçirilməsi sahəsində fəaliyyətlərin gücləndirilməsi;*

3. *Dövlət orqanlarında (qurumlarında), təşkilatlarda gender məsələlərinə məsul şəxslərin fəaliyyətinin gücləndirilməsi, onlara dair vəzifə təlimatının hazırlanması;*

4. *“Ailə planlaşdırılması və reproduktiv sağlamlıq haqqında” Azərbaycan Respublikası Qanunun qəbul edilməsi. BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyinin bütün formalarının ləğv edilməsi üzrə Komitəsinin ölkəmizlə bağlı tövsiyələrində də bu öz əksini tapıb;*

5. *Gender bərabərliyinin təmin edilməsinə dair milli fəaliyyət planının qəbul edilməsi;*

6. *Gender bərabərliyinin təminatı sistemində büdcə siyasəti və praktikasının formalaşdırılması;*

7. *Qadınların, xüsusilə kənd yerlərində yaşayan qadınların, kişilərlə bərabər iqtisadi hüquqlarının həyata keçirilməsinə hərtərəfli dəstəyin göstərilməsi;*

8. *Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının “Qadınlar, sülh və təhlükəsizlik” üzrə 1325 saylı qətnaməsinin Azərbaycan Respublikasında həyata keçirilməsinə dair milli fəaliyyət planının qəbul edilməsi;*

9. *İctimai həyatın bütün sahələrində, dövlət və özəl sektorda gender bərabərliyi mədəniyyətinin təbliği üzrə fəaliyyətlərin gücləndirilməisi;*

10. *Gender əsaslı zorakılığın, məişət zorakılığının qarşısının alınması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi; xüsusilə də məişət zorakılığına görə cərimə ilə bağlı sanksiyalara, tərəflərin barışması əsasında inzibati işlərə hər dəfə xitam verilməsi məsələsinə yenidən baxılması, cinayət qanunvericiliyinə məişət zorakılığı ilə bağlı normaların daxil edilməsi, məişət zorakılığı hallarının araşdırılması üzrə mexanizmin təkmilləşdirilməsi;*

11. *Məişət zorakılığından əziyyət çəkən şəxslərə təxirəsalınmaz və hərtərəfli yardımların göstərilməsi, bu məqsədlə beynəlxalq standartlara uyğun müvafiq infrastrukturun (dövlət yardım mərkəzləri, sığınacaqlar, qaynar xətt) yaradılması;*

12. *Gender əsaslı zorakılığın qarşısının alınması üzrə qabaqlayıcı tədbirlərin gücləndirilməsi, xüsusilə də maarifləndirmə və məlumatlandırma işlərinin rayon, kənd yerlərində daha geniş şəkildə aparılması;*

13. *Qız uşaqlarının erkən yaşda evliliyə məcbur edilməsi faktının müəyyən edilməsi bəzən hüquq-mühafizə orqanlarına çətinlik yaradığı üçün bu halların araşdırılması üzrə prosedurların təkmilləşdirilməsi;*

14. *Qız uşaqlarının təhsildən yayınması ilə bağlı monitorinqlərin gücləndirilməsi;*

15. *Doğulan uşaqlar arasında cins balansının pozulması hallarının qarşısının alınması ilə bağlı tədbirlərinin gücləndirilməsi;*
16. *İctimai həyatın bütün sahələrində, dövlət və özəl sektorlarda idarəetmə və qərarqəbuletmə səviyyəsində qadınların kişilərlə bərabər təmsilçiliyinin artırılması;*
17. *Qadınların iqtisadi fəallıq səviyyəsinin yüksəldilməsinə, xüsusilə onların peşə-ixtisas hazırlığnın artırılmasına yönəlmiş tədbirlərin gücləndirilməsi;*
18. *Qadın sahibkarlığının stimullaşdırılması üzrə mexanizmlərin işlənilməsi;*
19. *Ailə öhdəliyi olan işçilərin məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə məktəbəqədər təhsil infrastrukturunun inkişafı üzrə tədbirlərin davam etdirilməsi;*
20. *Əmək bazarında qadınların vəziyyəti ilə bağlı hərtərəfli statistik informasiyaların və etibarlı məlumat bazasının formalaşdırılması;*
21. *Həyat yoldaşlarının uşaq dünyaya gətirməsi ilə əlaqədar atalara verilən 14 günlük ödənişsiz məzuniyyətin ödənişli əsaslarla olması;*
22. *Seksual qısnamaya, ayrı-seçkilyi əks etdirən iş elanlarına görə sanksiyaların müəyyən edilməsi üçün qanunvericiliyə dəyişikliklərin edilməsi;*
23. *Müvafiq olaraq təhsilin bütün pillələrində fənn proqramlarına qadın hüquqları, gender bərabərliyi üzrə mövzuların daxil edilməsi;*
24. *Təhsildə və karyera seçimində qızları və gənc qadınları qeyri-ənənəvi sahələrə üstünlük verməkdə təşviq etmək;*
25. *Qadınların rəqabətliliyinin artırılması məqsədilə əmək bazarında prioritet peşələr üzrə peşə hazırlığının təşkili;*
26. *Kişilərin və oğlanların əmək bazarında onların azlıq təşkil etdikləri sahələrə cəlb etmək, bu sahələrdə kişilərə və oğlanlara təsir göstərən gender stereotiplərini aradan qaldırmaq;*
27. *Təhsilin bütün pillələrinə aid tədris resursları üzrə gender ekspertizasının keçirilməsi;*
28. *Siyasi partiyaların fəaliyyətlərində gender bərabərliyinin təşviq edilməsi;*
29. *Siyasi partiyalarda gender bərabərliyinin qorunması, bərabər iştirakçılıq və təmsilçilik, o cümlədən qadınların siyasi proseslərə qatılma imkanları və onun nəticələri haqqında məlumat bazasının formalaşdırılması.*

## Qeyd üçün

# Qeyd üçün